AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ adına ƏDƏBİYYAT İNSTİTUTU

Əlyazması hüququnda

AFAQ İSA QIZI ƏSƏDOVA

# TƏSƏVVÜFDƏ VƏ POSTMODERNİZMDƏ İNSAN VƏ SƏNƏT PROBLEMİ

5715.01- Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid
7211.01 - Estetika

Filologiya üzrə elmlər doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

A V T O R E F E R A T I

Bakı – 2015

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiysı Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində yerinə yetirilmişdir.

**Elmi məsləhətçi:** **Teymur Həşim oğlu Kərimov**
AMEA-nın həqiqi üzvü, fil.ü.e.d., professor

**Rəsmi opponentlər:** **Nizami Qulu oğlu Cəfərov**
AMEA-nın müxbir üzvü, fil.ü.e.d., professor

**Hüseyn Məmməd oğlu Həşimli**
filologiya üzrə elmlər doktoru, professor

**Adil İskəndər oğlu Əsədov**
fəlsəfə üzrə elmlər doktoru

***Aparıcı təşkilat:*** ***Bakı Slavyan Universitetinin Ədəbiyyat nəzəriyyəsi*** **kafedrası**

Müdafiə “26___”__05__2015-ci ildə saat “__” - da Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitutunun nəzdindəki D 01.131- Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ.1143, Bakı, H. Cavid prospekti 115, Akademiya şəhərciyi, Əsas bina, AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Elektron akt zalı, IV mərtəbə

Avtoreferat “____ ” _________ 2015-ci ildə göndərilmişdir.

**Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor** **İmamverdi Yavər oğlu Həmidov**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı**. XX əsr əvvəlki əsrlərdə görülməyən, hətta ağla belə gəlməyən tarixi kataklizmlərlə təfəkkürdə və varlıqda qlobal dəyişikliklər yaratdı. Rasional elm öz inkişafı ilə texniki tərəqqini misilsiz səviyyəyə gətirdi. Bəşəriyyət kosmosu mənimsəməyə başladı. İnsanın fiziki və mənəvi xüsusiyyətlərinin dəyişilməsinin gen mühəndisliyi, kiberorqanizm texnologiyaları tapıldı. Psixikanın imkanlarının genişləndirilməsinin yeni texnoloji və qeyri-texnoloji metodları tətbiq edildi. Klassik kapitalizm öz yerini postindustrial və informasiya cəmiyyətinə buraxaraq tarix səhnəsindən getdi. Sosialist sistemi və kommunist ideologiyası dağıldı. Ekoloji fəlakətlər adi bir hal aldı. Yer kürəsinin əhalisi çox iti sürətlə böhran xəttinə yaxınlaşdı.

Əgər XX əsrin əvvəllərində Şpenqler[1] Avropa mədəniyyətinin qürubundan danışırdısa, əsrin sonlarında Fukiyama[2] artıq tarixin sonunun çatdığını əsaslandırırdı. Artıq ictimai şüura insanın bioloji, fizioloji keyfiyyətlərinin dəyişməsi ilə onun sosial mədəni mahiyyətinin də dəyişdirildiyi insan sonrası, yeni texnoloji varlıqların hökm edəcəyi Yeni Dünyadan daha elmi fantastik şəkildə deyil, ciddi elmi üslubda danışılır.

Bütün bunlar sanki rasional elmin terminologiyası ilə desək, homo sapiens növünün – insanın mövcud olduğu, mədəniyyətlər və sivilizasiyalar yaratdığı bir tarixi dövrün sonunun başlandığını göstərir. Artıq insanlığın şüurunda «apokalipsis» – «qiyamət» kəlməsi təkcə mifik - məcazi mənada deyil, həm də bugünün texnogen sivilizasiyasının doğurduğu şübhə və qorxunun ifadəsi olaraq səslənir.

M.Haydegger hələ 1955-ci ildə yazırdı ki, Nobel mükafatı laureatları öz müraciətlərində elan edirlər: «Elm (yəni müasir təbiət elmləri) insanın xoşbəxtliyinə» aparan yoldur: Bu iddia üzərində düşünərək alman filosofu belə bir sual verir. «Bu sözlər düşünülərəkmi

---

[1] Shpengler O. The *Decline of the West*. L., *1974*, p.120.

[2] Fukuyama F. The West has Won: Radical Islam Can't Beat Democracy and Capitalism // http://www/guard-ian/co/uk.; Wee C. J. W.-L. "Asian Values", Singapore, and the Third Way: Reworking Individualism and Collectivism // Journal of Social Issues in Southeast Asia, 1999, vol. 14; Heidegger M. *On time and being*. University of Chicago Press, 2002.

deyilir? Bu sözlər deyildikdə atom əsri mənası üzərində düşünülürmü?»[3]. M.Haydegger hətta hidrogen bombası ilə belə müqayisə olunmayan texniki vasitələrin köməyi ilə insan həyatı və mahiyyəti üzərinə hücuma hazırlaşan texnogen sivilizasiyası haqqında həyəcanla danışır: «Belə ki, hətta hidrogen bombası partlamasa və həyat Yer üzərində saxlanılsa belə, yenə də atom əsri ilə bərabər dünyanın uğursuz şəkildə dəyişdirilməsi qaçınılmaz olaraq baş verir»[4].

Müasir elm diqqəti insanın daxil olduğu mürəkkəb özüinkişaf edən sistemlər kimi obyekt tipləri üzərində cəmləşdirərək aksioloji və sosial amilləri nəzərə alan yeni metodologiyalar tələb edir. İnsanın biosferanın və kosmosun tərkib hissəsi olduğunu əsas götürən yeni subyekt anlayışı formalaşır. Elmin qədəm qoyduğu bu yeni mərhələnin idealı gerçəkliyin dərkinin ciddi riyazi və fiziki modelləri ilə ictimai-humanitar elmləri birləşdirən sinergetik yanaşmalardır. Bu yanaşma tipinə görə dünya dinamik və mürəkkəb tənzimlənən sistemdir və insan fəaliyyətindən çox asılıdır. Bu da əks əlaqə fenomenini və subyektin aktivliyinin xüsusi rolunu hesaba almağı nəzərdə tutur.

Müasir elm ictimai inkişafın çox mürəkkəb və dinamik faktorudur. O getdikcə öz üfüqlərini genişləndirir və elmi-texniki tərəqqinin tempini yüksəldir. Amma idrakın məlum paradoksu da hər zaman olduğu kimi öz sözünü deyir: Biz nə qədər çox biliriksə, bir o qədər də bilmədiklərimizin sferası genişlənir. Daha kiçik şeylər haqqında daha çox bilmək arzusu mahiyyət baxımından daha mühüm olan şeylərin bilinməməsinə gətirib çıxarır. Rasionalizm bütün elmi, həyatı, insan psixikasını sarmış, onu maddiyyat buxovları ilə ruhunun sığmadığı artıq qlobalizmin və informasiya cəmiyyətinin çox-çox daraltdığı bir dünyaya bağlamışdır. Bu gün insanlıq bu buxovlardan azad olmaq üçün çoxsaylı psixoterapevtik və meditativ praktikalarda öz mənəvi xilasını axtarır… İnsan düşüncəsi öz üfüqlərini genişləndirmək istəyir, insan ruhu öz mənbəyini axtarır. İnsanlığın təfəkküründə, yaddaşında isə bu geniş üfüqlər, bu mənbə vardır… Rasional elmin inkişafı nəticəsində bilgi ilə bərabər bilgisizlik sferasının böyüməsi bu mənbənin

---

[3] Fukuyama F. The West has Won: Radical Islam Can't Beat Democracy and Capitalism // http://www/guard-ian/co/uk.; Wee C. J. W.-L. "Asian Values", Singapore, and the Third Way: Reworking Individualism and Collectivism // Journal of Social Issues in Southeast Asia, 1999, vol. 14.

[4] Heidegger M. *On time and being*. University of Chicago Press, 2002.

varlığını təsdiq etməlidir. Bu, insanlığın tarixi boyu ona göndərilən vəhylər və onların əsasında yaranan idraki və kəşfi bilgilərdir. Ezoterizm, sufizm, mistisizm və s… Rasionalizm bu anlayışların bəşəriyyətə verdiyi və verə biləcəyi real töhfələri kölgələyir. Çox təəssüf ki, son yüz ildə insanlığın zəkasını bürümüş, onun bəsirət gözünü dumanlandırmış elmi rasionalizm eynəyi altında bu anlayışlar hansısa qeyri-reallıqla bağlı, sanki həyata yad olan, elmə dəxli olmayan fəaliyyət sahələri kimi qələmə verilib. Bu gün isə artıq elm haqqında təsəvvürlərin özünün genişləndiyi bir zamanda bu biliklər olmadan, onlara əsaslanmadan bəşəriyyətin gələcək inkişafının mümkün olmayacağı getdikcə daha aydın hiss olunur.

Bəşəriyyətin son minillik düşüncə tarixinə analitik bir nəzər saldıqda təsəvvüfün nə qədər böyük təsir gücünə malik olduğunu görürük. Bütün İslam təfəkkürü, orta əsr xristian mistisizmi və teosofiyası. Son iki əsrlik Qərb fəlsəfəsi, hətta XX əsrin fəxr etdiyi psixoanaliz, analitik psixologiya və s. təsəvvüf düşüncəsinin təxəyyülünün izlərini təsdiq və ya təhrif olunmuş şəkildə özündə daşıyır. Kantın insan zəkasını sərhədləndirən aqnostisizmi, Hegelin mütləq ideyanın gerçəklikdə və mütləq ruhda təzahürü təlimlərindən tutmuş XX əsr ekzistensializminin «görmə»lərində, hazırkı real və mistik təsəvvürlər arasındakı sərhədləri uçuran yeni postmodernist nəzəriyyələrində təsəvvüf təliminin köklü təsirləri eynəksiz belə görünməkdədir. İnsanın gizli psixoloji aləminin, ruhunun qapılarının yuxular olması təliminin Ziqmund Freyd tərəfindən «elmi müstəvi»yə – materialist-pozitivist dünyagörüşü müstəvisinə gətirilməsi, fikrimizcə, sufizmin, modern-təhrif anlama gətirilməsidir. Bütün bu hökmlər mühüm elmi araşdırmalar tələb edir. Bu araşdırmalar olduqca zəruridir. Çünki bu təlimlər bugünkü rasional elmi dünyagörüşün ideoloji əsaslarını təşkil edir. Tədqiqatımızda mövzuya uyğun olaraq bu yöndə araşdırmalara geniş yer verilmişdir.

XX əsr ədəbiyyatı insan cəmiyyəti və təfəkküründə baş vermiş möhtəşəm dəyişikliklərlə, müəzzəm inkişafla bağlı olaraq öz missiyasını çox genişləndirdi. O, fəlsəfənin, psixologiyanın, sosiologiyanın və digər humanitar-ictimai təfəkkür sahələrinin əhatə dairəsinə nüfuz etdi. Ədəbiyyat rasional təfəkkürün gücünün yetmədiyi hədlərdən dünyanın dərkinə, insanın içinə girdiyi xaosun, məchulun aydınlaşdırılmasına, bu xaosun dilini tapmağa çalışdı. Min illər ərzində tarixin, insan təfəkkürünün içindən bir ana xətt kimi keçən insanın hissi-idraki

təkamülünün ən son, ən ideal ifadə formalarından biri olan təsəvvüf əslində elə bu missiyanı həyata keçirmişdir. Ancaq təsəvvüf xaosun deyil, vəhdətin dilini axtarmışdır. İnsan qəlbinin və idrakının bütövlüyün, vəhdətin, beləliklə həqiqətin idrakına, inkişafına, onunla bir oluşumuna, eyniləşməsinə can atmışdır.

Bu dissertasiya işində təsəvvüfün varlığının yaşarılığının, bəşər təfəkkürünün bu günü və sabahı üçün bir örnək olaraq necə böyük bir əhəmiyyətə sahib olduğunun təhqiqat və elmi ümumiləşdirmə ilə təsdiqidir. Bütün sənətlərin olduğu kimi, ədəbiyyatın da istər ontolojik təməlində, istərsə də tarixi təzahürünün arxasında «din» və «mənəviyyat» gerçəyinin durduğu tezisini əsas tutaraq təsəvvüf poetikası timsalında, ədəbiyyatın dünyəvi, bəşəri dəyərlərin, «sadəcə varlıq planında zühur edişlərin» ifadəsi olması ilə yanaşı, həm də günümüzdə də aktuallığını, yaşarılığını itirməyən, hətta bəlkə daha çox tələb duyulan metafizik, irfani dünyagörüşün sözçüsü olduğu qənaətini ortaya qoymağa çalışırıq.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyektini təsəvvüfdə və postmodernizmdə insan və sənət problemi ilə sıx bağlı olan materiallar, o cümlədən mövzunun əksini tapdığı elmi, fəlsəfi, sosioloji, etik, estetik və bədii ədəbiyyat təşkil edir. Çoxçalarlı fəlsəfi axınlardan (Şopenhauer pessimizmindən, Nitsşe nihilizmindən, Dilteyin «tarixi zəkanın tənqidi»ndən[5], Zimmel «intuitivizmindən»[6], Şpenqlerin «qərb sivilizasiyasını məhkum edən uzaqgörmələrindən»[7], Berqsonun «yaradıcı təkamül» ideyasından[8], Qusserlin fərdin və cəmiyyətin həyatını fərqləndirən «həyati aləm»[9] anlayışından, Haydeggerin «Zaman və Varlıq»ından[10] keçib gələn həyat fəlsəfəsi bu gün üçün yekun olaraq bir nəticəyə varıb: XXI əsr insanı üçün çox mühüm əhəmiyyət kəsb edən dəyərlər yalnız rifahın müəyyən səviyyəsi

---

[5] Дильтей В. Три эпохи в развитии современной эстетики и ее современные задачи, 1982, с.355.
[6] Зиммель Г. Избранное. Том первый. Философия культуры-М., Юрист, 1996, с. 641.

[7] Shpengler O. The *Decline of the West*. L., *1974*, p.120.
[8]Бергсон А. Творческая эволюция. М., Терра, 2001, с.383.

[9]Husserl Edmund. Phenomenology of Embodiment// http://www.iep.utm.edu/husspemb/.

[10] Heidegger M. *On time and being*. University of Chicago Press, 2002, p.273.

deyil, həm də bütün məcmusu və qarşılıqlı əlaqələri ilə birgə həyatın keyfiyyət parametrləri ilə ölçülməlidir. Həyatın keyfiyyəti isə onun sistemli bütövlüyündə mənəviyyatla müəyyənləşir, çünki mənəviyyat insan və cəmiyyət həyatının həlledici şərtidir. Mənəviyyat insan mahiyyətinin ən dərin ifadəsi və insan birliyinin, deməli həm də varlığın əsas şərti, təməlidir. Min illər ərzində mənəviyyat anlayışı dinlə bağlı olmuşdur. Əgər mənəviyyatın formalaşması əsasında yalnız nisbi həyati dəyərlər duracaqsa, onda bəşəriyyəti mənəvi fəlakət gözləyir.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiyada insan-sənət problemləri təsəvvüf və postmodernizmin baxış bucağında müəllif tərəfindən ilk dəfə müqayisəli şəkildə araşdırılır. Bu baxımdan aşağıdakı müddəalar işin elmi yeniliyi hesab edilə bilər:

-ədəbi-estetik fikir tarixinin iki mühüm epoxasının insan və sənət probleminin həllinə münasibətlərinin ilk dəfə müqayisəli araşdırılması dissertasiyanın əsas ideyası kimi bir sıra yeniliklərin əldə edilməsini şərtləndirmişdir;

-ədəbiyyatşünasliqda nisbətən az müraciət edilən və bədii estetik nəzəriyyənin əhəmiyyətli tərəfi olan insan-sənət münasibətləri ilk dəfə orta əsr Şərq-islam mütəfəkkürlərinin və postmodern cərəyan təmsilçilərinin görüşlərinin müqayisəsi əsasında araşdırılmışdır;

-“kamil insan” idealının və konsepsiyasının mahiyyəti xarakterizə edilmiş və mənbələri şərh edilmişdir;

-Qərbdə və Şərqdə postmodernizmin səciyyəvi xüsusiyyətləri təhlil edilərək mövcud fərqlər göstərilmişdir. Bədii idealın Qərb və Şərq nəzəri düşüncəsindəki ümumi cəhətləri araşdırılmış və bununla da onun vahid inkişaf xətti və bütöv strukturu təqdim edilmişdir;

-təsəvvüf və postmodernizmdə insan-sənət münasibətlərinə dair əsas fikir axınları təhlil edilərək onun sistemli konsepsiyasının yaradılmasına təşəbbüs göstərilmişdir;

-insanın sənətdə yeri və roluna dair ənənəvi-klassik təhlillərdən fərqli olaraq, problemin bədii-estetik mahiyyəti, oxşar və ziddiyyət təşkil edən məqamlar ayırd edilmişdir;

-Qərbdə və Şərqdə ədəbi təfəkkürlərin, bədii mədəniyyətlərin və mənəvi dəyərlərin müqayisəli təhlilinə, oxşar və spesifik xüsusiyyətlərin üzə çıxarılmasına sivilizasiyalararası dialoqun mövzusu kimi yanaşılmışdır.

Dissertasiya işində bu iki dünyagörüşün, «insan və sənət» problemlərinə baxışlarını qarşılıqlı-müqayisəli şəkildə tədqiq və təhlil

edərək, postmodernizmin özünün fəlsəfi-estetik görüşləri ilə təsəvvüfün içində var olduğunu və postmodernizmin də açıq bir dünyagörüşü olmaq etibarilə  təsəvvüfün məhz bir elmi təlim kimi varlığını qəbul etdiyini göstərməklə, əslində insan düşüncəsinin eyni əsaslara və eyni hədəflərə malik olduğu nəticəsini ortaya qoymağa çalışmışıq. Təsəvvüf insanın öz mənəvi təkamülündə çata biləcəyi ən yüksək məqam olan «kamil insan»ın fəlsəfəsini və estetikasını yaratmış, insanın ilkin təkamül mərhələlərini isə keçilməsi zəruri olan üzərində durmağı lazım bilinməyən bir mərhələ hesab etmişdir. Tarix boşluqları sevmir. Postmodernizm min ilə sonra bu boşluğu doldurur, min illərin dəyər prinsiplərinə qarşı çıxaraq antiinsanın fəlsəfəsini və estetikasını yaradır. Dissertasiya işində dialektik metodu əsas götürərək bu iki baxışı bir-birinə zidd, lakin vəhdətdə olan biri digərini tamamlayan dünyagörüşləri kimi təhlil edilir. Həmçinin ideal haqqında, ideal insan obrazı haqqında antik fəlsəfənin yaradıcılarından tutmuş Kantın, Hegelin, Marksın, Nitsşenin, XX əsr müxtəlif fəlsəfi cərəyanlarının nümayəndələrinin baxışları mövzu çərçivəsində tarixi müqayisəli-əlaqəli şəkildə tədqiq edilir, insan problemi, eləcə də «kamil insan» problemi ümumi antropoloci baxışlar prizmasından təhlil olunur. Hazırda getdikcə  dərinləşməkdə olan qloballaşmanın müsbət tərəfləri ilə yanaşı, yaratdığı çox mühüm problemlər mədəniyyətlər, dinlər arası əlaqələrin güclənməsini, özünün tarixi-mənəvi dəyərlərini qoruyub saxlamaqla müxtəlif fəlsəfi-estetik təlimlərin insan və eləcə də insan mükəmməlliyi haqqındakı təlimlərindən doğan, bəşəriyyətin düşdüyü müasir durumun cavabdehliyini, məsuliyyətini üzərinə götürən, insanın yaşam funksiyasının, mütərəqqi  inkişafının təminatını verə bilən vahid, canlı yaşanabilər, tətbiq olunabilər  insan konsepsiyası üzərində işlənilməlidir. Fikrimizcə, müxtəlif, hətta  müəyyən baxımdan bir-birinə zidd olan, lakin Yer üzündə mövcud olan eyni insanı ifadə edən iki dünyagörüşün qarşılaşdırılması, müqayisəsi və bundan doğan yeni elmi

fikirləri özündə ehtiva edən dissertasiya işi yuxarıda qeyd etdiyimiz aktual elmi düşüncə missiyasının tələbləri nəzərə alınaraq, üzərində çalışılan bir tədqiqat işidir.

Postmodernizm poststrukturalizmin nəzəri əsasları üzərində yetişmişdir. Poststrukturalistlər isə rasional idrak formalarını hissi idrakla tamamlayan, şəhlərin çoxluğu prinsipini önə sürən Nitsşe fəlsəfəsinin mühüm müddəalarını – varlıq ideyası dünya oyununun təşəkkülü kimi, dəyərlərin yenidən dəyərləndirilməsini həyata keçirməyə çağırış; idrakı yalnız intellektual-rasional deyil, həm də irrasional, «bədii» üsullara filosofluq etməklə yaradıcılıq kimi anlamaq – özlərinə məxsus şəkildə işləyib hazırlamışlar. Postmodernizmdə ilk plana fəlsəfi reaksiyanın rasional, məntiqi forması deyil, müasir insanın ətraf gerçəkliyə dərin emosional, daxili hissiyyat reaksiyası çıxır.

Poststrukturalizmin formalaşmasında həlledici rolu keçən əsrin 60-70-ci illərində aparıcı fransız poststrukturalistləri və postfreydistləri – Jak Lakan, Mişel Fuko, Jil Deler, Feliks Qvattari, Yuli Kristev, Jak Derrida, Rolan Bart, Jan-Fransua Liotar, Pyer Klossovski və başqalarının inkişaf etdirdiyi ideya və nəzəriyyələr oynamışdır. Bu nəzəriyyələrin kökləri varlıq ideyasının əsaslandırmasını təşəkkül kimi verməyə cəhd göstərən Fridrix Nitsşe, Anri Berqson, Edmund Qusserl, Martin Haydegger və digər filosoflara, həmçinin müəyyən dərəcədə skeptisizmdən doğan relyativizmi və bütün insanlar, dövrlər, həyat hadisələri üçün universal şəkildə yararlı olan həqiqətin kəşfinin mümkün olmasına şübhəni əsas götürən skeptisizm fəlsəfəsinə gedir. Poststrukturalizm üçün mütləq həqiqətə malik olma səciyyəsini ümumiləşdirən universalizmə iddia edən bilik formaları qəbuledilməzdir. Müasir insanın təfəkküründə təsdiqini tapmış həqiqət və dəyərlər şübhə altına alınır və onların üzərində yenidən düşünülməyə çağırılır. Poststrukturalizmin prinsiplərindən biri də bəşər təfəkküründə, xüsusilə də Qərb şüurunda mövcud olan bütün «pozitiv

həqiqətlərə münasibətlərdə» metodoloji şübhə prinsipidir. Bu prinsip insan biliklərinin təbiəti haqqında pozitiv təsəvvürlərin gerçəklik və hər şeydən əvvəl mədəniyyət fenomenlərinin rasionalist əsaslandırılmasına, universalizmə, daimi həqiqətə iddia edən hər cür ümumiləşdirici nəzəriyyəyə qarşı istiqamətləndirimişdir.

**Mövzunun öyrənilmə dərəcəsi.** Təsəvvüfün elmi-qneseoloji əsaslarını tədqiq edən əksər ciddi tədqiqatçıların fikrinə görə təsəvvüf özünün normal inkişafında İslam dininin təbii şəkildə dərinləşməsidir. Lakin tarixən sufizm müəyyən şəxslərin və məktəblərin timsalında öz mahiyyətinə görə İslama yad olan teosofik nəzəriyyələrin də müəyyən elementlərini əks etdirmişdir. Panteist ənənələrin sufizmə təsiri onun ayrı-ayrı nümayəndələrinin düşüncə sisteminin müəyyənləşməsində əhəmiyyətli rolu olmuşdur. Lakin sufizmin müxtəlif ruhi-mənəvi görüşlərin təcrübəsini götürməsinə və onları özündə birləşdirməsinə baxmayaraq, bu görüşlər təsəvvüfi yaşam prosesində dəyişikliklərə məruz qalmış və xalis islami istiqamət almışlar.

Ona görə də sufizmi, bəzi tədqiqatçıların iddia etdiyi kimi, sinkretik mistisizm forması hesab etmək doğru deyil. Mistisizm – dini təcrübənin təşkil olunmuş şəkildə yaşanmasıdır. Dissertasiya işində sufizmin qneseoloji köklərini araşdırarkən onu bir tərəfdən mistik idrakın «yol»larından biri kimi, digər tərəfdən isə bu mistik təcrübəyə rasional şərh vermək cəhdi – teosofiya kimi səciyyəvi xüsusiyyətləri baxımından təhlil olunur. Mistisizm Tanrını qəlb vasitəsilə intuitiv mənəvi qavrama, teosofiya isə ağlın gözü ilə Allahın vəhyi kimi gələn dinin ehkamlarını rasional bilgi çərçivəsində dərk edən sakral fəlsəfədir. Mistik «Allahı yalnız Allahın vasitəsilə» (İbn-Ərəbi), teoloq isə Allahı onun yaratdıqları vasitəsilə dərk edir. Dini təcrübə eyni olduğuna görə mistik səviyyədə onların arasında elə bir ciddi fərq yoxdur. Lakin mistisizm özünün vasitəsiz təcrübəsi ilə mütləq substansiyaya (Allaha) qovuşmanın, «əriyib onda yox olmanın» mümkünlüyünü iddia edir, Allahı yalnız onun yaratdıqları vasitəsilə dərk edənlər isə yaradılmışların, təzahürlərin verə biləcəyindən artıq dərk etməyə qadir olmanın mümkünlüyünü qəbul etmirlər. Tarixən sxolastik teologiya nümayəndələrinin sufizmə düşmən münasibətinin kökündə duran məsələlərdən biri də budur.

60-70-ci illərdə aparıcı fransız poststrukturalistləri və postfreydistləri – Jak Lakan, Mişel Fuko, Jil Deler, Feliks Qvattari,

Yuli Kristev, Jak Derrida, Rolan Bart, Jan-Fransua Liotar, Pyer Klossovski və başqalarının inkişaf etdirdiyi ideya və nəzəriyyələr oynamışdır. Bu nəzəriyyələrin kökləri varlıq ideyasının əsaslandırılmasını təşəkkül kimi verməyə cəhd göstərən Fridrix Nitsşe, Anri Berqson, Edmund Qusserl, Martin Haydegger və digər filosoflara, həmçinin müəyyən dərəcədə skeptisizmdən doğan relyativizmi və bütün insanlar, dövrlər, həyat hadisələri üçün universal şəkildə yararlı olan həqiqətin kəşfinin mümkün olmasına şübhəni əsas götürən skeptisizm fəlsəfəsinə gedir. Poststrukturalizm üçün mütləq həqiqətə malik olma səciyyəsini ümumiləşdirən universalizmə iddia edən bilik formaları qəbuledilməzdir. Müasir insanın təfəkküründə təsdiqini tapmış həqiqət və dəyərlər şübhə altına alınır və onların üzərində yenidən düşünülməyə çağırılır. Poststrukturalizmin prinsiplərindən biri də bəşər təfəkküründə, xüsusilə də Qərb şüurunda mövcud olan bütün «pozitiv həqiqətlərə münasibətlərdə» metodoloji şübhə prinsipidir. Bu prinsip insan biliklərinin təbiəti haqqında pozitiv təsəvvürlərin gerçəklik və hər şeydən əvvəl mədəniyyət fenomenlərinin rasionalist əsaslandırılmasına, universalizmə, daimi həqiqətə iddia edən hər cür ümumiləşdirici nəzəriyyəyə qarşı istiqamətləndirilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.**Tədqiqatın məqsədi təsəvvüfdə və postmodernizm dövründə qeyd edilən bədii-estetik konsepsiyalardakı insan və sənət münasibətlərinin bütöv mənzərəsini yaratmaq, bu əsasda da əsrlər keçməsinə baxmayaraq sufizim irsinin günümüzdə də qeyd edilən sahədə mürəkkəb problemlərin həlli üçün əhəmiyyətli potensiala malik olduğunu əsaslandırmaqdır.

Bu məqsədlə aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- təsəvvüfdə insan və sənət probleminin həllinin, ideya-bədii mahiyyətinin təhlili əsasında ümumi mənzərəsinin yaradılması;
- orta əsrlər Şərq-islam mistisizminin və təsəvvüfün bədii-estetik səciyyəsinin verilməsi;
- sufi poeziyasında "kamil insan" idealı və bədii-estetik dəyərlərin məna fərqinin göstərilməsi;
- mütəfəkkir sufilərin (Ş.Sührəvərdi, İbn Ərəbi və S.Konəvinin simasında) kamilliyə çatmaq yollarının fərqli metodologiyalarının nəzərə çatdırılması;
- Azərbaycan ədəbi fikir tarixində təsəvvüf və onun məktəblərinin insan və sənət probleminin həllinə baxışının təhlil edilməsi;
- təsəvvüf mistisizminin Avropa bədii-fəlsəfi düşüncəsinə təsiri və

əhəmiyyətinin göstərilməsi;

- XIX əsr Avropa ədəbiyyatşünaslığında ideal insan axtarışlarının əsas istiqamətlərinin klassisizm, ənənə və novatorluğun qarşılıqlı təsiri prizmasında təhlili;
- romantizmdən bəhs edən ədəbiyyatşünaslığın ideya qaynaqlarında mistisizmin yeri və əhəmiyyətinin təsəvvüf nümunəsində səciyyələndirilməsi;
- ədəbi-bədii dövr kimi postmodernizmin "insan idealı"nın mahiyyətinin verilməsi;
- Qərb-Avropa postmodernizminin başlıca ədəbi cərəyan və məktəblərinin ümumi mənzərəsinin yaradılması;
- Şərqdə və Qərbdə postmodernizm və təsəvvüfün insan-sənət probleminə baxışlarının sintezində nəzəri əsas kimi rolunun dəyərləndirilməsi;
- postmodernizmin insan-sənət probleminin həlli üçün ədəbi-estetik metod axtarışında təsəvvüfdən bəhrələnməsi cəhdlərinin göstərilməsi;
- Azərbaycanda postmodern ədəbu düşüncədə insan və sənət probleminin qoyuluşu və təhlilinə münasibət bildirilməsi;
- təsəvvüf irsinin müasir sivilisaziyanı harmoniyaya aparan ümumbəşəri dəyər kimi səciyyələndirilməsi və digərləri.

**Tədqiqatın metodoloji əsası.**Tədqiqatın nəzəri və metodoloji əsaslarını insan-dünya və sənət münasibətlərinin bədii-estetik dərki və ifadəsi ilə sıx bağlı olan tədqiqatlar, sözügedən mövzu ilə əlaqədar elmi-nəzəri fikirlər təşkil edir. Metodoloji prinsiplər kimi tarixilik və məntiqilikdən, həmçinin müxtəlif ədəbi epoxa və təlimlərin müqayisə edilməsinə imkan verən komparativ təhlildən, eləcə də ədəbiyyatşünaslıqda sistemli metodun elementlərindən istifadə olunmuşdur. Tədqiqatın nəzəri və metodoloji əsasları araşdırılan mövzunun-miqyas və əhatəsi elmlərarası (ədəbiyyatşünaslıq, fəlsəfə, estetika, külturologiya, psixologiya və s.) problemlərə bələd olmağı tələb edən ədəbi cərəyanların - təsəvvüf və postmodernizmin xüsusiyyətlərindən irəli gəlmişdir.Bu da bir-birini tamamlayan ədəbi-nəzəri, ədəbi-tarixi, hermenevtik, simvolizm və s. metodoloji yanaşmaları tələb edir. Tədqiqatın əsas metodu qeyd edilən ədəbi fikir axınlarının, Qərb və Şərq fəlsəfi fikrində insan-sənət münasibətlərinin xüsusiyyətlərinin təhlilində istifadə edilən ədəbi-nəzəri müqayisəli təhlildir. Aparılan müqayisə zamanı Şərq və Qərb alimləri üçün səciyyəvi olan dünyagörüşləri, sonuncuların təməl prinsipləri arasında

paralellər aparmaqla buradakı fikir müxtəlifliyi və onun yaranma səbəbləri aydınlaşdırılmışdır. Bu baxımdan tədqiqat zamanı istifadə olunan metod kimi hermenevtika qeyd edilməlidir. Tədqiqatda həmçinin sistemləşdirmə metodundan istifadə edilmiş və onun əsasında bir sıra təsnifatlar aparılmışdıır.

Araşdırmada nəzəri mənbələr kimi istər orta əsrlərin klassikasına, dahi mütəfəkkirlərinin əsərlərinə, istərsə də yeni və ən yeni postmodern dövrün ədəbiyyat nəzəriyyəçilərinin əsərlərinə müraciət edilmişdir.

**Tədqiqatın elmi –təcrübi əhəmiyyəti.** Tədqiqat mövzusunun aktuallığı, onun elmi ədəbiyyata gətirdiyi yeniliklər və qarşısına qoyduğu məqsədlər müvafiq olaraq onun nəzəri və praktiki əhəmiyyətini şərtləndirmiş olur.

Mövzunun araşdırılması problemin yeni yanaşmada tədqiqinin davam etdirilməsində təkanverici amil ola bilər. İnsan-sənət münasibətlərinin təhlilinə sistemli, müqayisəli və kompleks yanaşma ədəbi axtarışların hüdudlarını genişləndirməyə imkan verir.

Tədqiqatın elmi-nəzəri əhəmiyyəti həm də ondadır ki, o insanın bədii-estetik dünyagörüşü və zövqünün formalaşmasının yeni prinsip və metodlarını nəzərdən keçirməyə, tətbiq etməyə imkan verir.Tədqiqat işi bədii-estetik təfəkkürün əhəmiyyətli bir hissəsini təşkil edən "insan idealı"nın formalaşmasının müxtəlif metodoloji sintezi üçün yeni model, nümunə axtarışlarına istiqamət verə bilər.Rasional düşüncənin fövqündə mövcud olub inkişaf etməyinə, fərdi və subyektiv xarakter daşımasına baxmayaraq təsəvvüfün dərk etdiyi həqiqətlərin və ona nail olmağın metodlarının təsviri, şərhi və təqdimi zamanı tədqiqatçının rasional vasitə və metodlarından postmodernizm də istifadə etməli olur.

İslam mistisizmi cərəyanlarının irsinə nəzər salarkən onların metaforik bir dildə yazıldığının şahidi oluruq.Bu üslub xüsusilə sufi mütəfəkkirlər üçün xarakterik olmuşdur. Bu baxımdan postmodernizm mətnlərinin təhlilində tətbiq olunan metodların müxtəlifliyinə (hermenevtika, ədəbi-tarixi müqayisə, elmi sistemləşdirmə) baxmayaraq sözlərin, kəlamların mistik-ezoterik mənasının açılışı ümumi metodoloji fənd hesab edilə bilər.

Araşdırmanın nəticələrindən ali məktəblərin müvafiq fakültələrində "Ədəbiyyatşünaslıq", "Estetika", "Ədəbiyyat nəzəriyyəsi" və "Ədəbi tənqid" ixtisasları üzrə mühazirə kurslarının

oxunmasında, mədəniyyətlərarası və dinlərarası dialoq isiqamətində aparılan araşdırmalarda istifadə edilə bilər.

Dissertasiya işinin metodoloji və nəzəri əsasları keyfiyyətində mövzunun mürəkkəbliyinə və geniş əhatə dairəsinə uyğun olaraq klassik rassionalizmin bütövlük, obyektivlik, tarixilik kimi prinsiplərdir. Təsəvvüf ədəbiyyatı və postmodernist əsərlərdən çıxış etməyə imkan verən hermenevtik metod psixoloji paradiqma ilə birgə istifadə edilmişdir. Həmçinin, dissertasiyada insan probleminə onun irrasionalizmə, mistisizmə, ezoterizmə və s. ənənələri ilə əlaqəsini görməyə imkan verən müqayisəli-tarixi yanaşmadan istifadə edilmişdir. Hermenevtikanın, psixoanalizin, fenomenologiyanın, fəlsəfi antropologiyanın metodoloji üsullarından istifadə edilmişdir. Tədqiqat işinin nəzəri bazası ədəbiyyat, estetika, fəlsəfə, etika, fəlsəfi antropologiya, fəlsəfə tarixi, tarix fəlsəfəsi, mədəniyyət fəlsəfəsi, islam və təsəvvüf tarixi shəsindəki əsərlər olmuşdur.

Dissertasiyanın materialları və əsas müddəaları həmçinin müasir cəmiyyətdə humanizm, ünsiyyət və dialoq mədəniyyətinin formalaşması istiqamətində istifadə üçün faydalı ola bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya AMEA-nın Nizami adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin istiqamətlərinə uyğun olaraq yerinə yetirilmişdir. Tədqiqatin əsas müddəaları və nəticələri müəllifin ölkədə və xaricdə nəşr olunan elmi əsərlərində əksini tapmış, tezislər şəklində çap olunmuşdur. O, mövzu ilə əlaqədar beynəlxalq və respublika elmi-praktiki konfrans və simpoziumlarda məruzələr etmişdir.

**Dissertasiyanın strukturu.** Tədqiqat işi giriş, dörd fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat sıyahısından ibarətdir.

## *DİSSERTASİYANIN ƏSAS MƏZMUNU*

Tədqiqatın **"Təsəvvüf və postmodernizm: iki ədəbi təfəkkür"** adlanan birinci fəsli doqquz yarımfəsli əhatə edir. Birinci yarımfəsil **"Postmodernizm və təsəvvüf"** adlanır. Postmodernizm və təsəvvüf – bir birinə çox uzaq, müəyyən meyarlara görə hətta əks qütblərdə dayanan bu iki təfəkkür sistemi arasında hansı qarşılıqlı əlaqələr ola bilər və bu əlaqələr müəyyən norma, prinsip və qanunauyğunluqlara əsaslanan

elmi nəticələrə çatmaq baxımından nə dərəcədə sabit və ümumi səciyyə daşıya bilər. Mövzunun məhz bu şəkildə ilk baxışdan bir-birinə çox uzaq görünən iki təfəkkür (bizim istiqamətimizlə bağlı olaraq iki ədəbi təfəkkür) fenomeninin müqayisəli-qarşılaşdırma prinsipinə uyğun olaraq öyrənilməsi cəhdi, onların fərqli və oxşar cəhətləri, qarşılıqlı əlaqə və təsirlərinin üzə çıxarılması ilə bərabər bu gün olduqca aktual, ciddi səciyyə daşıyan, lakin hələ də bir çox parametrləri sona qədər müəyyənləşməyən yeni postqeyri-klassik təfəkkür metodlarının humanitar tədqiqatlarda istifadə olunması cəhdini ifadə edir.

Azərbaycan ədəbiyyatının canına hopmuş ezoterik bilgi-təsəvvüfdür. Müasir ədəbiyyatımızın dəyərli nümayəndəsi İsa Hüseynov (Muğanna) da özünün "Əbədiyyət" romanında bu energiyanı "saf elm", "ağ işıq" adlandırırdı. Amma eyni zamanda qeyd etmək lazımdır ki, Kamal Abdulla bu "energiya"nı müasir elmi məntiq çərçivəsində ələ almış, Muğanna isə bu "ağ işığı", "saf elm"i öz bədii təxəyyülünün axarında elmi məntiq çərçivələrindən uzaqlara aparmışdır.

Postmodernizm köksüzlüyün, daha doğrusu, bir ana kökün olmadığı "lifəbənzər" və "saçaqşəkilli", qarışıq kök sisteminə malik olan, botanikaya məxsus "rizoma" terminini öz bədii təcrübəsinin modeli, emblem fiquru kimi mənimsəmişdir. Bu cərəyanın bir çox yaradıcıları "rizoma" metoforasını təbii, sosial, elmi-məntiqi və mədəni hadisələrin dəqiq sistemli və iyerarxik şəkildə nizamlanan təşkilat formaları kimi qəbul edilən struktur anlayışına zidd olaraq işlətmişlər. Postmodernizm üçün nümunə sayılacaq "Qızılgülün adı" romanının müəllifi Umberto Eko "rizoma"nı bu cərəyanın mentaliteti üçün səciyyəvi olan simvolik labirint proobrazı kimi xarakterizə etmiş və romanın yaradılmasında məhz "rizoma"nı rəhbər götürdüyünü qeyd etmişdir. Azərbaycan ədəbiyyatında postmodernizm yaradıcılarının əsərlərində postmodernizmin digər elementlərindən olduğu kimi, rizomadan da məharətlə istifadə etmişdir. "Yarımçıq əlyazma"da Oğuz elinə xəyanət edən iki casus axtarışı bir fikir labirintinə, hadisələrin qarışdırılmasına, xaotik bir struktura yönəldilir və oxucu gərgin bir maraqla bu xaosun nizama çevriləcəyi bufurkasiya nöqtəsini gözləyir.

Görkəmli təsəvvüf tədqiqatçısı, ingilis alimi Trimingem "İslamda sufi ordenləri" əsərində sufizmin qnoseoloji əsaslarına nəzər salarkən müxtəlif sufi təriqətlərinin baxışlarını ümumiləşdirərək, nəfsin mərtəbələrini əlamət və xüsusiyyətləri ilə təsvir etmişdir. Hər bir postmodern əsəri oxuduqda onun əksər qəhrəmanlarının məhz nəfsin

bu mərtəbəsindəki ən neqativ xüsusiyyət və əlamətlərə malik olduğunun, bu xüsusiyyətlərin postmodernist paradiqmada, dilin postmodernist istismarında necə simulyasiya olunduğunun, hipertrofiyalaşdığının, "şəffaflaşdığı"nın, fatal bir ssenariyə salındığının şahidi oluruq. Təsəvvüflə postmodernizmin kəsişdiyi və sonra hər birinin zidd istiqamətlərə yönələn bu mərtəbə dünyanın səthinin insan qəlbinin səthi ilə kəsişdiyi – ictimai həyatın yaşandığı xaos mərtəbəsidir. Bu mərtəbədən təsəvvüf – fərdin əbədi harmoniyasına, postmodernizm isə xaosun daha da güclənib hansısa bir ictimai fluktuasiyanın təsiri ilə növbəti müvəqqəti ictimai nizama aparacaq təsadüfi bufurkasiya nöqtəsinə aparır.

İkinci yarımfəsil **"Cərəyanların - düşüncə sistemlərinin qarşılıqlı-müqayisəli təhlili"** adlanır. XX əsrin görkəmli sosioloqlarından biri Pitirim Sorokin insan biliklərini üç həqiqət sisteminə ayırmışdır: ideasional, hissi və idealist həqiqət sistemi. İdeasional həqiqət – Allahın seçilmiş müqəddəs insanlar vasitəsilə göndərdiyi vəhylər, mistik təcrübələr vasitəsilə əldə edilən ezoterik bilgilər, kəşflər və s. hissi həqiqət sistemi hissi qavrama üzvləri vasitəsilə çatılan bilgilər – müasir rasional elmin əsasında durur. İdealist həqiqət isə, Sorokinə görə, iki həqiqət sisteminin bizim zəkamızla yaradılmış sintezidir. Əlbəttə, bu həqiqət sistemlərinin hər birini bir-birindən fərqləndirən xüsusiyyətlər, forma, struktur, prinsip və metodologiyalar vardır. Tarixin gedişində bu fərqli həqiqət sistemləri gah bir-birinə qarşı qoyulmuş, gah biri dominant olmuş, gah da müəyyən uzlaşma içində olmuşlar. XX əsr hissi bilgilərin dominantlığını yaratdı. Ümumiyyətlə, XX əsri hissi mədəniyyət əsri hesab edirlər. Modernizm bu mədəniyyətin övladıdır. XX əsrin yaşadığı böyük ictimai-siyasi kataklizmlər, dünya müharibələri, misli görünməmiş hərbi texnika, insanlığı fəlakət həddinə çatdıran ekoloji böhranlar və mənəvi tənəzzül də hissi mədəniyyətin törəməsidir. Ona görə də artıq postmodernizm modern düşüncənin yaratdığı dəyərlər sisteminə qarşı çıxır və bu mübarizədə digər – ideasional və idealist həqiqət sistemlərinin də mövcudluğuna haqq qazandırır. Məhz bu həqiqət sistemlərinin üfüqlərində görünən tarixin ən parlaq simalarından biri də İbn Ərəbi olduğuna görə, fikrimizcə minillik təsəvvüf düşüncəsi ilə günümüzün düşüncə sisteminə hakim olmağa cəhd edən postmodernist düşüncə ilə müqayisədə ən müvafiq model – İbn Ərəbi təlimidir.

Təsəvvüf min ildən artıqdır ki, tarixin müxtəlif dövrlərində özünü müxtəlif şəkildə və fərqli ünsürləri ilə fərdlərin və toplumların həyatında mühüm rol oynamışdır. Təsəvvüf özünün müxtəlif istiqamtləri ilə məktəbləri icitimai və mədəni şərtlər, qavrayış və qəbulediş tərzləri, mənəvi təkamül yolunda üsul və metodlar baxımından fərqli olsalar da, mənbə və əsasları, məqsəd və hədəflərinə, təsəvvüfi təcrübənin əldə edilməsində bir çox sufinin keçirdiyi hallar, nail olduğu məqamlara görə insanın təkmilləşməsi yolunun müxtəlif mərhələlərinin və özünəməxsus nəzəri-idraki ideyaların nizamlanması baxımından son dərəcə ardıcıl və bütöv bir sistemdir. Sufizm təcrübəsi – həqiqətin dərkinin mistik yolu (süluk) sufizm fəlsəfəsinin qneseoloji məqsədini məntiqi və ardıcıl şəkildə gerçəkləşdirir. Kamilləşmə yolu insanın kamil bir rəhbərin – mürşidin, şeyxin, kutbun izi ilə öz «mən»indən, eqosundan təmizlənərək mütləq substansiya ilə qovuşma yoludur.

Sufi təliminin formalaşması VIII əsrin ortaları – IX əsrin başlanğıcına təsadüf edir. İlk yarandığı vaxtlarda sufizmə insan qəlbinin incəliklərinin, onun davranışlarının gizli motivlərinin təhlili, dini ehkamların daxili dərkinə artırılmış diqqət xas idi. İslamda dini və mənəvi həyat tərzi kimi sufizm diqqətini dinin zahiri məsələlərinə deyil, daha çox insanın daxili «mən»inin inkişafına yönəltmişdir.

Sonrakı inkişaf dövrlərində sufizm şaxələnərək müxtəlif məktəblər, gizli ordenlər şəklində sosial-siyasi həyata nüfuz etmişdir. Lakin sufizmin mahiyyəti həmişə insanın daxili mənəvi-ruhi həyatının inkişafı ilə, ölümsüzlük ideyası ilə bağlı olmuşdur. İslam zəminində yaranan, islamın ezoterik bilgi və yaşam sahəsi olan sufizmin formalaşmasının həm zahiri, həm də daxili amilləri var. Yarandığı zəminlə, ona göstərdiyi təsir və sıx bağlılığını nəzərdə tutan xarici amillərin əhəmiyyətini azaltmaq olmaz. Lakin insana yönəlik, humanist, azadlıqsevər tərəfi ilə sufizmin dünya fəlsəfi-estetik və sosial etik fikrinin inkişafının gedişinə təsir göstərən daxili amilləri son dərəcə mühümdür. Bu günün problemləri prizmasından yanaşdıqda insanlığın düşüncə tarixini dalana sürükləməkdə olan postmodernist situasiyadan çıxış yollarından biri kimi təsəvvüfün daxili amillərinin rolu, fikrimizcə, müstəsna dərəcədədir. Postmodernizmi özündən əvvəlki modernizmin və deməli, rasional düşüncənin öz imkanlarını zorladığı və dialektik şəkildə antirasionallığa keçidin dekonstruksiyası hesab etmək olar. Postmodernizmin tanımındakı müxtəlif fikirləri iki qrupda ümumiləşdirmək olar. Bunlardan biri olan tarixi yanaşmada

postmodernizm XX əsrin ikinci yarısı mədəniyyətinin ümumestetik fenomeni kimi baxılır. Bu nöqteyi-nəzərdən postmodernizm qanuni şəkildə bir-birini əvəz edən mədəni epoxalar zəncirində növbəti həlqədir. İkinci baxış isə tarixüstü, transtarixi baxış kimi səciyyələnə bilər: Müxtəlif mədəni epoxalarda bənzər situasiyalar, «postmodernist» situasiyaların dövri təkrarlanması baş verir. Bu baxış aspektində postmodernizm hər bir böhranlı dövrdə düşüncə və dəyərlərin dəyişdiyi keçid dövrü estetikası kimi qiymətləndirilir. «Postmodernizm - təsbit edilmiş xronoloji hadisə deyil, nə isə bir mənəvi durumdur», «hər bir dövrün özünün xüsusi postmodernizmi var» (Umberto Eko).[11]

Bəzi tədqiqatçıların fikrinə görə, hər bir dövrün özünün həyatın böhranlı təzahürlərinin ifadəsini verən «postmodernizm»i olmuşdur. Lakin əvvəllər bu təzahürlər özlərinin lokallıqları ilə fərqlənirdilər. Məhz indi postmodernizm ilk dəfə özünün qloballığı ilə bütün dünya mədəniyyətinin böhranının göstəricisi kimi tarix səhnəsinə qədəm qoymuşdur. Vaxtilə A.Şopenhauerin, Hegelin hesab etdiyi kimi, anlayışlara əsaslanan rasional düşüncə ilə deyil, intellektual intuisiya, yəni dünyanın bədii, estetik, poetik mənimsənilməsi kimi xüsusi üsullarla dünya proseslərinin mahiyyətinə daha güclü, daha dərin şəkildə nüfuz etmənin mümkünlüyünü ifadə etmişdir.

Birinci fəslin üçüncü yarımfəsli **"Postmodernizm"** adlanır. Bu yarımfəsildə əsasən aşağıdakı məsələlərdən bəhs edilir. "Dövrün mədəni aurası" olan postmodernizm hadisəsinin mahiyyətinin tam anlaşılması həm də məhz elə onun təfəkkür prosesinin mərkəzində yerləşdirdiyi dilin – yazılı dilin, yazılı mətnin, dil işarələrinin linqvistik təbiətinin öyrənilməsindən keçir. Bu istiqaməti tədqiq edən nəzəri refleksiya bütün dil gerçəkləşməsi təzahürlərinə mətn, diskurs, təhkiyə kimi baxır. Bütün insan mədəniyyəti kompleksi mətnlərin, intermətnlərin məcmusu kimi götürülür. "Gerçəkliyin hər bir sxematikləşdirilməsi işarəli" olduğundan, "hər bir fikir işarə" olduğundan, hər bir fikir başqa bir fikir tərəfindən açıldığından və başqa fikir də işarə olduğundan, onlar başqa fikir-işarələrin köməyi ilə şərh olunur. Düşüncə fasiləsiz proses olduğuna və hər bir fikir də özündən əvvəl və sonrakı fikirləri nəzərdə tutduğuna görə şərh zəncirində bir həlqəni təşkil edir və yalnız bu

---

[11] Эко У. Роль читателя.Исследования по семиотике текста / пер. с англ. итал. С. Серебренного. М., СПб: Simpozium, 2007, s. 502.

zəncirdə məna kəsb edir. İşarənin mahiyyəti isə məhz fikrin şərhçisi rolunu oynamasındadır. Eyni zamanda müasir postmodernist mətnlər yalnız bir şərhə deyil, müxtəlif şərhlərə, həmçinin, əks şərhə söykənir. Bu mətnlərdə işarə anlayışı sözün işarəsi olmaqdan daha geniş mənaya malikdir. Postmodernist diskursun semiotik təhlili hər cür mümkün olan işarələrin açılmasına kömək edir. Ədəbiyyatda gerçək obyekti və onun inikasını təqdim edən, yaxud qarşı-qarşıya qoyan təcəssüm prinsipi postmodernizmdə özünün dominant əhəmiyyətini itirir. Postmodernizm estetikasını J.Liotar "təsəvvürolunmazın təsəvvürü" kimi müəyyənləşdirir və hesab edir ki, postmodernizm təkrarlama hərəkətini deyil, hansısa unudulmuşu yenidən işləyən təhlil, anamneza, analogiya və anamorfozadır"... Postmodernizm köhnənin və yeninin, keçmişin və bugünün sintezini ifadə edən, açılmasını tələb edən işarə konstruksiyası və ya diskursdur. "Postmodernist diskursu işarələrin fasiləsiz konstruksiyalaşması kimi təsəvvür etmək olar. Bu, uzaq düşmüş fikrin özünəməxsus şəkildə dəqiqliklə işlənməsidir". J.Bodriyarın dili ilə desək, postmodernist diskurs dil şəxsiyyətləri arasında rəmzi (və ya işarəli) mübadilə üçün materiala dönür.

Derrida struktralizmin əsas prinsipi olan "strukturun strukturluğu" prinsipinin özünü və ənənəvi semiotik təsəvvürləri tənqidə məruz qoymuşdur. O, hər bir dil işarələnməsi üsulunun qacılmaz şəkildə etibarsiz olduğunu bildirir və dilin nəyisə müəyyən şəkildə ifadə edə biləcəyi ideyasina qarşı cıxır. 1969-cu ildə yazdığı "Humanitar elmlərdə struktur, işarə və diskursda oyun" məqaləsində özünün əsas baxışlarını - strukturun mərkəzsizləşdirilməsi, işarə və "iz" ideyalarını, "düşüncənin azad oyunu" prinsipini formalaşdırmışdır.

Postmodernizm reallığa bir mətn, diskurs, nəql etmək kimi baxır. "Mətndən kənarda heç nə mövcud deyil" – Derridanın bu məşhur kəlamı postmodernizmin təməl sütunlarından biridir. Hər hansı tarixi dövrün mədəniyyəti mətnlərin, yaxud intermətnlərin məcmusu kimi təqdim edilir. Mətnin başa düşülməsi yalnız "mədəniyyətin diskurs sahəsi"ndə, yəni başqa mətnlərlə əlaqəli şəkildə mümkündür. Bu əlaqəlilik heç də hansısa hərfi mənalılıq və ya normativ həqiqətlə bağlı deyil. Əvvəlki mətnlərin zəruri şəkildə iştirakı – intermətnlilik hadisəsi yaradır. Hər bir mətn bu intermətnlilik məkanında yerləşir, digər mətnlərlə bağlanır, onlardan doğur və yeni mətn doğurur, həmişə sonu hansısa görünməyən, indiyə qədər mövcud olan bütün mətnlərin məcmusu olan bütöv bir mətnin hissəsi kimi meydana çıxır, ona görə də

müstəqil sayıla bilməz. Postmodernist təhlilin ümumi metodu olan dekonstrkuksiya hər bir mədəniyyət fenomeninə, hər bir mətnə tətbiq olunarkən qaçılmaz şəkildə çoxmənalı və sonsuz şərh prosesinə çevrilir, istənilən bir mətni, hər bir anlayışı relyativləşdirir, nisbiləşdirir, bununla da həqiqət problemini mənadan məhrum edir. Dil qeyri-sabit dəyişkən bir mühitə çevrilir, o, bilavasitə məna və həqiqəti daşıya bilmir. Postmodernizmin ən mühüm tezislərindən biri olan mətnin özünə qeyri-eyniyyəti və dil vasitəsi ilə alınan biliyin etibarsızlığı buradan çıxır.

Postmodernizmin əsas tezislərindən biri də "subyektin ölümü"dür. M.Fuko və R.Bart tərəfindən işlənmiş bu konsepsiya postmodernist düşüncənin inkişafında daha çox təsir gücünə malik olmuşdur. J.Derridanın dekonstruksiya konsepsiyası və Y.Kristevanın intermətnlilik konsepsiyası da yeni nəticələrə gətirib çıxarmışdır.

Birinci fəslin dördüncü yarımfəsil **"Dekonstruksiya"** adlanır. "Bir mətnin yazılı sətirləri ilə bu sətirlərin boşluqları arasında heç bir fərq yoxdur" – deyən Stenli Rosen özünün "Hermenevtika siyasət kimi" əsərində hermenevtika tarixini məhz bu düşüncə ilə nəticələndirir. Bu düşüncəni doğuran səbəbləri isə belə ümumiləşdirir: "Hermenevtikanın birinci qayəsi Tanrının kəlamını açıqlamaq olmuşdur. Bu qayə sonralar insanın kəlamının açıqlanması müddətinin müəyyənləşdirilməsinə qədər genişləndi.

Təsəvvüfün Quran, Kitab, Müshəf və s. isimlərlə sonsuz bir anlam xəzinəsi kimi ələ aldığı ilahi vəhyə şamil edilənlər postmodernizmdə hər bir mətnin bütöv bir mətnin tərkib hissəsi olması ilə eyniləşdirildi. Sufi, insan ağlının sonsuzun dərkində acizliyini qəbul edib, ilahi vəhyin hökmlərini yaşam prinsipləri kimi fərdi həyat təcrübəsində sınaqdan keçirərək, vəhyin sonsuzluqlarında əriyib fəna olmaq dərəcəsinə gəlib çatmağın, lakin yenə də Kitabın sirrinin açılmadığını, açılmayacağını, hətta nə qədər mümkün dərin təfsirlərlə kitaba nüfuz edilsə də, Tanrının hər an doğub-törətdiyi, lakin heç əksilmədiyi, eləcə də Quranın sonsuz şərhlərinin davam etdiyinə baxmayaraq öz sirrindən heç nə vermədiyini, nə qədər açılsa da, yenə də tam qapalı qaldığını iddia edir.

Təsəvvüfdə Quranın sonsuz sayda şərh və anlamlarının olması fikri müqəddəs kitabın yozumlarında, təfsir tarixində geniş yayılmış, bir çox görkəmli sufinin, eləcə də islam filosof və alimlərinin qəbul etdiyi fikirdir.

Postmodernist dekonstruksiyanın əksinə olaraq təsəvvüf yozumları ancaq bir mətn üzərində vurğulanır və bu mətn təsəvvüfə görə bütün mətnləri ehtiva edir.Postmodernizm dekonstruksiyası ilə təsəvvüf yozumlarının müqayisə edilə biləcəyi xüsusiyyətlərdən biri mətnin hər hansı bir məna sərhədlərindən aşması, eləcə də, çox zaman anlaşılan mənalarına göstərilən etimadsızlıqdır. Mətndən çıxarılan anlam və anlamlar oxucuda, fərqli anlamların sonu olmayan bir axın halını alır. İbn-Ərəbinin "Fütuhat"ının ikinci cildində oxuyuruq: "Şərhlərin Allah tərəfindən məqsədləndiyini göstərmişdik. Allaha qarşı bir hökm verilə bilməz. Belə ki, Allahın kəlamından tələffüz edilən hər hansı bir ayət - bu istər Quran, istər endirilmiş bir kitab və ya səhifə və ya ilahi xəbər olsun - sözünün daşımış olduğu bütün anlamlarla birlikdə ayətdir. Başqa bir ifadə ilə söz ayətə əlamətdir və özünü o dildə endirən tərəfindən bu ehtimallar məqsədlənmişdir. Çünki onu endirən bütün ehtimalları bildiyi qədər bəndələrinin ayətə baxışlarının fərqli olduqlarını da bilir. Ayətdən hər kim nə anlarsa, anladığı o şəxs adına bu ayət ilə qəsd edilən anlamdır…"

Postmodernizmin ən görkəmli nümayəndələrindən biri olan Jak Derridanın dekonstruksiya və bütün dünyanın bir mətn olması kimi ana fikirləri təsəvvüfün əsrlərlə Qurana münasibətinin və Quran üçün dediklərinin bütün başqa kitablara şamil edilməsi fikrini doğurur.

Beşinci yarımfəsil **"Postmodernizm – dünyaya estetik baxış, ictimai-əqli fəaliyyət və loqomərkəzçilik"** adlanır. Postmodernizm poststrukturalizm nəzəriyyəsinin, dekonstruktivizmin ədəbi-tənqidi təhlil təcrübəsinin və müasir incəsənətin bədii təcrübəsinin sintezi kimi təfəkkür tarixinə qədəm qoymuşdur. Bu sintez dünyaya tamamilə fərqli, yeni bir baxış statusu iddiasını özündə daşıyır. Qeyd etmək lazımdır ki, bu iddia son bir neçə onillikdə o qədər güclü təsirə malik olmuşdur ki, ədəbiyyatda, sənətdə "yenilik", "orijinallıq", "müasirlik" və s. anlayışları "postmodernizm" termini ilə sanki sinonim səciyyəsi daşımağa başlamışdır. "Postmodern" yarlığı, "postmodern" klişesi vurulmayan hər hansı bir sənət əsəri diqqətdən kənarda qalır, əksinə, bu ad altında yaranan hər hansı bir əsər isə, əvvəlcədən, heç bir bədii sənətkarlıq, fikir və məzmun xüsusiyyətləri nəzərə alınmadan ədəbiyyat və sənət məkanında özünə yer tapmış sayılır. Müasir ədəbiyyat olimpinə iddialı olan hər hansı bir əsər hökmən postmodernist səciyyə daşımalıdır.

Belə bir təmayül son illər Azərbaycan ədəbiyyatında da özünü çox bariz şəkildə göstərir. Qəribədir, həmişə olduğu kimi yenə də gecikmiş şəkildə bütün dünyada "postmodernizm" dalğası aşağı düşüb sakitləşməyə, durulmağa başladığı bir vaxtda Azərbaycan ədəbiyyatında bu, yeni nəslin yeni nihilist çılğınlığı, özünütəsdiqi kimi meydana çıxır.

Ədəbiyyatda "postmodernizm" termini bir neçə mənada işlədilir. Modernizmdən postmodernizmə doğru hərəkətin səciyyəvi olduğu, yəni artıq modernizmin öz ifadə formalarını tükədib arxada qaldığı müəyyən dövrü – keçən əsrin birinci yarısında hakim olan modernizmin son həmlələri keçən əsrin 40-50-ci illərində "antiroman" və "antidram" ədəbiyyatı şəklində özünü göstərdi. 60-cı illərdə isə postmodernizmin cizgiləri aydın şəkildə görünməyə başladı. Azərbaycan ədəbiyyatında bu dalğa 60-cı illər ədəbi nəslinin yaranmasını şərtləndirdi. Bu nəsil artıq ədəbiyyat tarixi səhnəsində inkişafının pik nöqtəsində olan və yavaş-yavaş öz yerini adına "post" önşəkilçisi artıraraq, onu davam etdirən, nə qədər paradoksal görünsə də, həm də inkar edilən modernizmin xüsusiyyətlərini mənimsəyərək, özünəməxsus yeni bir ədəbiyyat yaratmağa başlamışdı. Əlbəttə, 60-cı illər Azərbaycan sovet gerçəkliyi postmodernizm doğurmamışdır. Ədəbiyyatın, həm də həyatın bütün ünsürləri kimi ənənələr üzərində doğulmaqla həmin ənənəni dağıda bilən bir həyat gerçəkliyi olduğunu nəzərə alsaq, sosializm realizminin o dövrə qədərki Azərbaycan ədəbiyyatını nə qədər buxovladığını və dünya ədəbi-fəlsəfi təfəkkür axınından nə qədər uzaq düşdüyünü nəzərə alsaq, 60-cı illər Azərbaycan ədəbiyyatının, Avropa və Amerikada yaranan "postmodernizmi" doğura bilməyəcəyini anlamaq mümkündür.

Altıncı yarımfəsil **"Dini təmayül - Postmodernizmdə"** adlanır. Postmodernizmin həm dini, həm də qeyri-dini təmayüllərinin demək olar ki, bütün nümayəndələri Mütləq probleminə müraciət etmişlər. Mütləqi mövcud dünyanın əsası kimi nəzərdən keçirən postmodernistlər onun ifadəolunmaz və təsvirolunmaz olduğunu qeyd edirlər. Buna görə də postmodernistlər konsepsiyalarında üstünlüyü bədii, mistik və intuitiv idrak formalarına verilir.

Dini təmayüllü postmodernistlər ifadəolunmaz ilahi gerçəkliyə bütün mövcudluğun səbəb və mənbəyi kimi nəzər salırlar. Panteist ənənənin davamı kimi onlar hesab edirlər ki, ilahi gerçəklik öz-özlüyündə mövcud deyil, sonlu şeylərdə və onların qarşılıqlı

əlaqələrində təcəssüm olunur. Dini təmayüllü postmodernizmin əsas nümayəndələrindən biri olan D.R.Qriffin mütləq gerçəkliyi "yaradıcı təcrübə" adlandırır. Başlanğıcda "yaradıcı təcrübə" filosofun düşüncəsinə görə Tanrıda təcəssüm olunmuşdur və Tanrısız mövcud deyildir. Öz növbəsində Tanrı da "yaradıcı təcrübə"siz mövcud deyildir. Qriffin vahid mahiyyətin bu təzahürünü eyni dərəcədə başlanğıc və kamil kimi götürür. Lakin Tanrı anlayışı Qriffinə görə müəyyən xüsusiyyətlərə malikdir. O, Tanrıya aksioloji kamillik kimi baxır. Tanrı "yaradıcı təcrübə"nin təcəssümünü sonlu mövcudluqlarda müəyyənləşdirərək başlanğıcda əxlaqi, estetik, məntiqi və riyazi dəyərləri öncədən nəzərdə tutur. Postmodernist fəlsəfənin antitotalitar istiqamətinə müvafiq olaraq Qriffin xristian teologiyasında Tanrıya verilən hakimiyyəti məhdudlaşdırmağa çalışır. Onun nöqteyi-nəzərinə görə, bütün kainatın yaradıcısı hər biri xüsusi funksiyaya malik olan Tanrı və "yaradıcı təcrübə" eyni mahiyyətdir. Dünya "yaradıcı təcrübə"nin fəaliyyətinin məhsuludur, mənəvi dəyərləri isə Tanrı yaradır.

Qriffin yalnız yuxarı instansiyalar tərəfindən həyata keçirilən səbəbiyyət və məna yaradıcılığını mümkün hesab edir. Bununla da teist konsepsiyalardan əhəmiyyətli dərəcədə ayrılır. Onun fikrinə görə, yalnız Tanrı deyil, şeylərin özü də yaradıcı qüvvəyə malikdir. Məna yaradıcılığını və ali qüvvəyə tabeliyi tanımaqla o, dünyada səbəb-nəticə əlaqələrinin mövcudluğunu və onların determinist izahının mümkünlüyünü qəbul edir.

Qriffin öz nəzəriyyəsinə teoloji versiya olaraq X.Smitin baxışlarını yaxın sayır. Smit də həmçinin öz teoloji görüşlərinin Qriffin nəzəriyyəsilə oxşarlığını etiraf edir, lakin onların arasında mühüm fərqlər olduğunu da qeyd edir. Filosof hər hansı bir müəyyən keyfiyyətə malik olmayan mütləq gerçəkliyin mövcudluğunu təsdiq edir. Amma Qriffindən fərqli olaraq Smit Tanrının fərdiyyət olmadığını hesab edir. O, Qriffindən fərqli olaraq panteist mövqedə Tanrını fərdi keyfiyyətlərdən məhrum edərək daha ardıcıl şəkildə çıxış edir. Smit həm Laplasın müddəalarını, həm də dialektik determinizmi inkar edərək yalnız ali instansiya tərəfindən həyata keçirilən səbəbiyyəti və məna yaradıcılığını mümkün hesab edir. Smitə görə, dünyada baş verən hadisələr əvvəlcədən qərarlaşdırılan ilahi fikrin işartılarını daşıyırlar.

Mütləqin rasional dərkinin qeyri-mümkünlüyünü və ifadə olunmazlığını postmodernist düşüncənin digər nümayəndələri də təsdiq

edir. J.Derrida nə hissi, nə də rasional yolla dərk edilməyən nə isə başqa bir şeyi nəzərdə tutur. O hesab edir ki, ifadə olunmaz mövcudluğun dərki yalnız özünə mistik elementləri daxil edən "dekonstruksiya" adlandırılan xüsusi növ yaradıcılıqla mümkündür. Derridanın fikrinə görə, dekonstruksiya vasitəsilə rasionalist ənənəyə əsaslanan ənənəvi din və ateizm formalarından azad olmaq mümkündür.

J.Bodriyar ənənəvi dinlər tərəfindən Tanrı və Tanrının dərki şərhini eləcə də ilahi gerçəkliyi inkar edən fəlsəfi konsepsiyaları qəbul etmir. Mütləqin hər hansı bir keyfiyyətində Bodriyar "şirnikmə"nin hökm sürdüyü ifadəolunmaz gerçəkliyi nəzərdə tutur. "Şirnikmənin fəlsəfəsi"ni Bodriyar özünün "Şirnikmə" kitabında esse formasında ifadə edir. "Şirnikmə", Bodriyara görə, heç bir fəlsəfi konsepsiyaya daxil edilmir. Filosof hesab edir ki, görüntülərin manipulyasiya edilməsi təbiət qanunlarının dərkindən daha böyük gücə malikdir.

Ənənəvi dinlərin Tanrı şərhini M.Fuko da qəbul etmir. O da Mütləqin mövcudluğunu dünyanın ilkin əsası kimi elan edir. Fukonun nöqteyi-nəzərinə görə Tanrı şərhi "epistem"lər əsasında qurulmalıdır. Fuko Avropa mədəniyyətində Yeni zamanın üç episteminin olduğu qənaətini irəli sürür: Renessans (XVI əsr), klassik (XVII-XVIII əsrlər) və müasir (XVIII-XIX əsrlərdən başlayaraq).

**"Postmodernizm ağlın və zəkanın güc mənbəyi kmi"** adlanan yeddinci yarımfəsildə göstərilir ki, postmodernizmin hələ də tarixi inkişafla bağlı bütün problemlərə olduğu kimi, insan probleminə olan münasibətində də oynadığı rol tamamilə aydın deyildir. "Zəkanın insanın güc mənbəyi və unikallığının mənbəyi" olmaması mövqeyindən çıxış edən postmodernizm yarandığı dövrün xaotik, böhranlı situasiyasının ifadəsi kimi özündən əvvəlki təfəkkür istiqamətlərinin totalitar düşüncənin təcəssümü olan elmilik, ontologiya, antropomərkəzçilik və s. ilə bağlı maneələri dəf edərək, sərt determinist prinsiplərdən uzaqlaşaraq əslində həm də neçə minillik insan təfəkkürünün çox dərin bir böhranının təzahürü kimi meydana çıxmışdır. O, bu böhranın yaradıcısı olmasa da, bu böhranın dərinləşməsində, beləliklə də çıxış yollarının yaxınlaşmasında maraqlı olmuşdur. Postmodernizm insan obrazını onun hər hansı bir modallığı üzərində bərpa etmir, onu yenidən açmağa çalışır. Bunun üçün də insan haqqında mücərrəd rasionalist nəzəriyyələrdən, hər hansı bir sxematizmdən, insanın dünyanın mərkəzi kimi ideallaşdırılmasından

imtina edir, onun bədənli-fizioloji, şüurlu-şüursuz sferasını özündə əks etdirə bilən, dil determinantları ilə onun şərtiliyini aça bilən çağdaş modelini yaratmağa, onun əsl təbiətini izah etməyə cəhd edir.

Batay insanın ikililik ifadəsini, antivalentliyini göstərərək qeyd edir ki, "əmək, uşaqlara qayğı, qarşılıqlı xeyirxahlıq və loyallıq insanların qarşılıqlı münasibətlərini müəyyənləşdirmişdir. Eyni zamanda bir amansız zorakılığın tüğyanını da görürük; müəyyən şəraitlərdə elə həmin insanlar talançılığa, öldürməyə, indiyə qədər birgə, mehriban yaşadıqları insanlara qarşı zorakılıq etməyə və işgəncə verməyə başlayırlar". Yalnız o aydın deyil ki, onu "nə vaxtsa funksional olan, indi isə lazım olmayan və arzu etdikdə ləğv etmək mümkün olan hər hansı bir cücərtiyə bənzətmək mümkündürmü. Əgər bu, insan qəlbində yetişən, lazım olduqda çıxarılıb atıla biləcək bir cücərtidirsə, onda çox da xüsusi bir problem deyil, "insan öz qanunları ilə istədiyi dünyanı qurar, müharibə və zorakılıqdan qaça bilər".

Bütövlükdə Batayın ideyaları yeni nəsil postmodernist filosofların düşüncələri ilə səsləşirdi. Bütün düşüncə tarixi boyu tabu şəklinə salınmış mövzular XX əsrin ortalarından, xüsusilə də Freyddən sonra gün işığına çıxmağa başladı. Cinsilik insanın ontoloji keyfiyyəti kimi baxılmağa başlandı. Məhz bu baxımdan da postmodernizmin yaradıcılarının Markiz Donasio de Sadın yaradıcılığına istinad etmələri təbii idi. Postmodernizmin psixoanalitik istiqamətinin yaradıcılarından olan Lakana görə, Sad dialektikasının mənası onun müasiri olan Kantın "Təcrübi zəkanın tənqidi" əsərindəki düşüncələrlə eynidir. Onların hər ikisi subyektin qanuna tabe olması haqqında bəhs edirlər. Markiz de Sad Kant etikasının "həqiqətini üzə çıxarır. O gizli kantçıdır". "Əxlaq qanunu cəllad-əzabkeşi ifadə edir, başqasının bədənini öz xüsusi həzzi üçün istifadə edir". Kantın inam üçün yerin təmizlənməsinə görə biliklərə sərhəd qoyma cəhdini Lakan biliyə cəhdin rəmzi qaydalarını sıxışdırmaq və başqasini nəzərdə tutan ikili və sonsuz arzular üçün yer təmizlənməsi cəhdi kimi qiymətləndirir və qeyd edir ki, elə Sad da məhz bunu təsvir edir. Kant da, Sad da subyektivliyin sərhədlərini genişləndirmək üçün əsas axtarırlar. Lakana görə, Kantın dərk edən və təcrübi zəka haqqında təlimi işarə edənin identifikasiyası cəhdidir. Sadın fəlsəfəsində subyekt və obyekt arasında sərhəd yoxdur, ona görə də onun üçün başqasına münasibətdə amansızlıq məsələsi durmur.

Səkkizinci yarımfəsil ““**Postistiqamətləndirici” - sənət termini kimi”** adlanır. Sənət və bədii fəlsəfə vasitələri ilə insan bir çox başqa, çoxlu obyektlər arasında xüsusi obyekt kimi nəzərdən keçirilir. «Obyektiv olanı fərdi şəkildə hiss etmək bacarığına sahib olduğuna, obyektiv formaları isə intensiv həyatla dolduraraq, onları konkret və fərdi şəkildə təqdim etdiyinə görə ədəbiyyat fəlsəfənin predmeti olur. Postmodernizmdə  xüsusi diqqət predmeti olan avanqard ədəbiyyat insanı həmişə qeyri-kamil bir varlıq kimi təqdim edir. Poetik rasionallıq vasitələri ilə biliyin doğruluğunun yeni formalarının, həqiqətin estetik dərkinin axtarışı aparılır. Mimezisin qanunları ilə uyğunluqda və ifadə ilə məna arasındakı əlaqənin təhlilində poetik həqiqət açılır. O, yalnız qeyd olunmur, hazır şəkildə verilmir, o aktualdır, o kəşf edilmir, o yaradılır. Təcəssüm dekonstruksiya ilə əvəz olunur.

Poetik rasionallıq postmodernizmin insan və dünya haqqındakı yeni konsepsiyanı əsaslandırma vasitəsi kimi dünyaya əsatiri-poetik münasibəti bərpa edir. Bu münasibətdə insan təbiətlə tam bir harmoniyada olur, kosmik varlığa daxil edilir. Bədənlə ruh arasındakı fiziki və psixi, hissi və əqli müxalifət aradan götürülür. İnsana fasiləsiz olaraq təşəkküldə olan hissi-emosional varlıq kimi baxılır.

**“Postmodernizm-üslubların və əqidələrin relyativləşməsi”** adlanan doqquzuncu yarımfəsildə göstərilir ki, insan problemi, onun gerçəkliyə və bu reallığın sənətdə təcəssümünə münasibəti postmodern paradiqmada mərkəzi yerdə durur. Postmodernizmdə insan problemi sənət problemi ilə üzvi şəkildə bağlıdır, çünki bu cərəyanda insan obrazı refleksiyanın məhz estetik forması ilə açılır. Bu forma insanda fəlsəfi antropologiyanın sərhədlərindən kənarda qalanları - xüsusiyyət və keyfiyyətləri göstərməyə imkan verir. İnsanı total düşüncə buxovlarından, zəkanı «kabus»lardan azad etmək istəyən postmodernizmin klişələnmiş fəlsəfi paradiqmalara qarşı layihələrinin əsasını insan, onun həyat və məna oriyentləri təşkil edir.

Poetik rasionallıq postmodernizmin insan və dünya haqqındakı yeni konsepsiyanı əsaslandırma vasitəsi kimi dünyaya əsatiri-poetik münasibəti bərpa edir. Bu münasibətdə insan təbiətlə tam bir harmoniyada olur, kosmik varlığa daxil edilir. Bədənlə ruh arasındakı fiziki və psixi, hissi və əqli müxalifət aradan götürülür. İnsana fasiləsiz olaraq təşəkküldə olan hissi-emosional varlıq kimi baxılır.

Postmoderinzm insanlığın hissi və mənəvi təcrübəsini poetik rasionallıq prinsipləri ilə yeni tərzdə şərh edir, insan təbiətinin

mahiyyətini və bütövlük ideyasını bədən və ruh arasındakı müxalifətin götürülməsi kimi müəyyənləşdirir. İnsan öz münasibətlərinin müəllifi, yaradıcısıdır, buna görə də onun arzuları, tələbatları, fiziki bədənə malik olması və dili belə mühümdür. O, dünyaya illüziyalarsız baxmalıdır, onun şəxsi keyfiyyətləri isə ona qeyri-sabit şəraitlərdə yaşamağa kömək etməlidir. Estetik təcrübə dilin kəşfi imkanları ilə bağlıdır. Postmodernizmin başlıca elementlərindən biri olan dilə onun subyekt-predikat əlaqəli qrammatik stukturunun köməyi ilə ifadə olunan hər bir mənanın əsaslı olmaması nöqteyi-nəzərindən baxır. Dekonstruksiya kommunikativ səriştə problemini önə çəkir. Bu problemə əsasən dil yalnız bir kod kimi başa düşülmür. O, arzuların dilsiz sahəsinin mühüm olmayan sferası kimi başa düşülməlidir. Belə olduqda hər şey nisbi və hər şey qəbul olunan kimi görünür. Bu halda yeganə adekvat mövqe həyati situasiyalara permanent oyun vəziyyətləri kimi yanaşmaqdır. Bu, özünə və dünyaya yeni şəkildə, dramatik gərginlik olmadan yanaşmağı, özünü və həyatı olduğu kimi qəbul etməyi, həyati çətinliklərin öhdəsindən daha yaxşı gəlməyi öyrədir.

Postmodernizmdə aksiologiya səviyyəsində kanonların, bütün rəsmi şərtiliklərin dağıdılması, ənənəvi dəyərlər mərkəzləri ilə insanlığın mədəniyyət tarixində müqəddəsləşdirdiyi, fetişləşdirdiyi dəyərlərlə mübarizə, dəyərlərin ironiyalı şəkildə yenidən qiymətləndirilməsi, xeyir-şər, sevgi-nifrət, gülüş-dəhşət, gözəllik-eybəcərlik, həyat-ölüm və s. kimi ziddiyyətlərin qarşılaşdırılması və ya dağıdılması müşahidə edilir. Bu mənada postmodernizm bir fəlsəfi antisistem təşkil edir.

Kompozisiya baxımından postmodernist əsərlərə fraqmentarlıq, sərbəst montaj prinsipi, şeylərin təyinatına uyğun olmayan şəkildə istifadəsi, təbiəti etibarilə birləşə bilməyənlərin birləşdirilməsi, ölçü hədlərinin, proporsiyanın pozulması, harmoniyasızlaşdırma, amorfluğun özbaşına formalaşdırılması, dekonstruktiv prinsipin təntənəsi, dağıtma və xaosda yeni əlaqələrin bərqərar edilməsi xasdır.

Janr etibarilə postmodernizmə hibridləşdirmə, janrların mutant dəyişdirilməsi, yeni formaların yaradılması, janr sinkretizmi xasdır. Ənənəvi janrlar dağıdılır - ədəbiyyat, fəlsəfə, tarix, kulturologiya, sənətşünaslıq və s. bir janr modifikasiyası çərçivəsində mövcud olur. Janrlar qarışdırılır, nümayişkaranə şəkildə quruculuq, ciddilik, xeyirxahlıq prinsipindən məşğulluğa, avantürizmə keçilir, janr diffuziyası yaradılır. Çoxmətnlilik, mətn aralıqları, mətnin mətndən

kənar allyüziyalarla, reminissensiyalarla doldurulması, geniş kulturoloji kontekst-postmodernizmin janr xüsusiyyətlərinin elementləridir.

Obraz, surət yaradıcılığı baxımından postmodernizm faciəviliyin ideal üzərindəki üstünlüyünü təsdiq edən antropoloji pessimizmin insan haqqındakı təsəvvürlərindən çıxış edir. Postmodernizmdə irrasional başlanğıc immanent şüur, qiyamət dünyabaxışı, esxatoloji dünyagörüşünün təntənəsi insan, şəxsiyyət, qəhrəman, personaj və müəllif səviyyəsində tipoloji səciyyəsini müəyyənləşdirir.

Postmodernist estetika antiestetiklik, şok, epataj, çağırış, brutallıq, görüş şərtiliyi, patologiyaya meyl, antinormativlik, gözəlliyin klassik formalarına harmoniya və ölçülülük haqqında ənənəvi təsəvvürlərə qarşı etirazla səciyyələnir. Postmodernizm üçün dini, fəlsəfi, estetik məsələlərdə heç bir sərt ciddi prioritet yoxdur. O, bədii əsərlərə tətbiq baxımından «keyfiyyət» probleminin qoyuluşunu da qəbul etmir.

**"Yeni dövr postmodernizm cərəyanı və təmsilçiləri" a**dlanan ikinci fəsil altı yarımfəsildən ibarətdir.Birinci yarımfəsil **"Postmodernizmdə ədəbiyyat axınları. "Entropiya" və Tomas Pinçonun romanları" adlanır.** Burada Amerika postmodernizminin xüsusiyyətləri, onun «qara yumor» məktəbi çərçivəsində formalaşması mənbələri, insan və yazıçı mövqeyinin əsası kimi mistifikasiya bədii yaradıcılıqda antropoloji postmodernizm haqqında tədqiqat işi çərçivəsində bəhs edilir. Postmodernist ədəbiyyat kontekstində Tomas Pinçonun və con Bartın yaradıcılığı təhlil edilir."Postmodernizm plüralizmin əleyhinə olan hər şeyə qarşı yönəlib. O, monizm, unifikasiya, totalitarizm, utopiya və despotizmlərin gizli formaları ilə vidalaşır, əvəzində müxtəliflik və paradiqmaların rəqabətinə keçir". Bu sözlər alman postmodernizm nəzəriyyəçisi Volfqanq Velşin "Bizim postmodernist modern" (1987) əsərindəndir.

Ikinci yarımfəsil **"Con Bartın əsərləri"** adlanır. C. Bartın əsərlərində postmodernizm proqramının mahiyyətini təşkil edən neqativ insan obrazı bu gün yaşayan hər bir insanın həyatına gələ biləcək fəlakətlərin xəbərdarlığıdır. Postmodeznizmin başlıca məqsədi yeni şəraitdən çıxış edərək, informasiya cəmiyyəti erasına daxil olan insanın «total azadlığını» təmin edə bilməkdir. İnformasiya kürəsəlləşmiş dünyada yaşamaq insan üçün getdikcə çətinləşir, insanların öz identikliyini əldə etməsi və qoruyub saxlaması problemi kəskinləşir. İqtisadi-sosial şərtlərin kəskin dəyişməsi şüurun dezorqanizasiyasını

doğurur. Dünyada aqressiyanın, qarışıqlığın, xaotik davranışların artımı bununla izah olunur. İnsan özünü ənənəvi ictimai institutlarda müdafiə olunmuş hiss etmir. Dünya və özü haqqındakı əvvəlki təsəvvürlərindən tutub qalmaqla insan yeni dünya qarşısında aciz qalır. Postmodernizm insan mahiyyəti haqqında metafizik məsələlərdən daha çox, yaranmış sosial-iqtisadi şəraitdə insanın yaşam funksiyasını davam etdirməsi problemi ilə məşğuldur. O, insanı özünün düşüncə və həyati dəyərlərini dəyişdirməyə çağırır. Postmodernizm humanizmin bir forması kimi çıxış edir.

Postmodernizm – XX əsrin ikinci yarısında fəlsəfədə, incəsənətdə, ədəbiyyatda inkarı inkar nəticəsində yaranmış cərəyandır.

Bir vaxtlar modernizm klassik, akademik dəyərləri inkar edib yeni bədii formalar yaratdığı kimi postmodernizm (almanca "moderndən sonra gələn") də modernizmi inkar edərək ədəbiyyatda xaos, elementlər müxtəlifliyi yaradır. Postmodernist Amerika yazıçısı Con Bartın fikrincə, postmodernizm – keçmişin mədəniyyətindən şirə çəkən bədii təcrübədir.

Postmodernizm nəzəriyyəsi məşhur filosof J.Liotarın, Jak Derridanın və digərlərinin fəlsəfi konsepsiyası əsasında yaranıb. Bu nəzəriyyəyə görə, "dünya-mətndir", "mətn-reallığın yeganə mümkün modelidir". Postmodernizmin əsasında duran ideya mənbələrindən biri olan poststrukturalizmin nəzəri əsaslarının hazırlanmasında filosof-kulturoloq Mişel Fukonun və başqalarının böyük rolu olmuşdur. C.Bart, T.Pinçon, C.P.Danlivi, D.Bartel ("Qara yumor məktəbi"nin nümayəndələri), D.Delillo, J.Delöz, F.Qvatari, U.Eko, U.Gibson, C.Barns, İ.Kalvino və b. postmodernizmin görkəmli nümayəndələri hesab olunurlar.

Ikinci fəslin ücüncü yarımfəsli "**Ingilis ədəbiyyatında postmodernizm" adlanır.** Əgər postmodernist ədədbiyyatın amerikan variantı, bir çox tədqiqatçıların fikrinə görə, "Qara yumor məktəbi" adlanan ədəbi axın məcrasında formalaşmışdısa, Böyük Britaniyada düşüncənin sosial-mədəni istiqamətliliyi ilə konkret tarixi əsaslanmasına olan təmayülü ilə ortaya çıxmışdır. İngilis postmodernizminin əsas səciyyəvi əlamətlərindən biri "tarixə mübtəlalıqdır". İngilis postmodernist romanının əsas təmsilçiləri isə P.Ekroyd, C.Barns, Q.Svift, M.Bredberi, A.Bayet və başqalarıdır. İngilis postmodernizminin yaratdığı yeni tipli romanlar, yaşadığımız "qiyamət sonrası" dövrdə insan sivilizasiyasında artıq ən böyük və ən

dəhşətli şeylər arxada qalmışdır. Tarixin əbədi spiralvari, dairəvi hərəkət mexanizmini, tarixi tiplərin daimi, yenidən təkrar törənişini təsdiqləyən postmodernist ədəbiyyat üçün tarixi təhkiyə forma etibarilə elmdən daha çox ədəbiyyatla ümumilik təşkil edən sözlü ifadədir. "Tarix - baş verən nə isə deyil. Tarix - bu yalnız tarixçinin bizə danışığıdır. Bəli, ənənələr, planlar, inkişaf, ekspansiya, demokratiyanın təntənəsi olmuşdur; bizim qarşımızda əlaqəli, izah edilə bilən qobelen hadisələrin axını, mürəkkəb təhkiyə durur. Bir zərif süjet öz ardınca başqasını cəlb edir". Bu ifadələr ingilis postmodernizm ədəbiyyatının görkəmli nümayəndəsi C.Barnsın "Dünya tarixi 10½ fəsildə" romanındandır. Müəllif davam edərək yazır: "Biz hamımız bilirik ki, obyektiv tarix dərkedilməzdir, hər bir hadisə çoxlu subyektiv həqiqətlər doğurur, sonra biz bunu qiymətləndirir və bunun guya gerçəklikdə baş verdiyini "nəql edən tarix yazırıq".Bu "tarix", yazan ingilis postmodernistlərinin romanlarında postmodernist metanəşrinin xüsusiyyətləri bariz şəkildə ifadə edilmişdir. Bu əsərlərə nümunə olaraq D.Faulzun 1969-cu ildə yazdığı "Fransız leytenantının məşuqəsi", C.Barnsın "Dünya tarixi 10½ fəsildə" (1989), K.Tremeynin "Bərpaetmə", Q.Sviftin "Tonc" (1983) və "Nə varsa sonra" (1992), A.Bayettin "Mələklər və həşəratlar" (1992), P.Ekroydun "Milton Amerikada" (1996) romanlarını göstərmək olar.

Bu yarımfəsildə adları çəkilən əsərlərin postmodernist aspektləri əhatəli şəkildə araşdırılır.

Ikinci fəslin dördüncü yarımfəsli **"Umberto Eko" adlanır.** XX əsrin II yarısından başlayaraq bütün Qərb ədəbiyyatında olduğu kimi, italyan ədəbiyyatında da yeni postmodernist paradiqmanın yaradılması əlamətləri ilə qarşılaşırıq. İtalio Kalvino, Umberto Eko kimi italyan postmodernizminin görkəmli nümayəndələri bu yeni istiqamətin yalnız milli ədəbiyyat çərçivəsində deyil, həm də bütün dünya ədəbiyyatında aparıcı bir istiqamətə çevrilməsində mühüm rol oynamışlar. Bədii yaradıcılığı ilə yanaşı elmi-fəlsəfi, ədəbi-tənqidi, həmçinin semiotika üzrə geniş və dəyərli tədqiqatları ilə professor-müəllimlik fəaliyyəti ilə də şöhrətə malik olan Umberto Eko Qərbi Avropa mədəniyyətində postmodernizmin yaradıcılarından biri kimi ad qazanmışdır. Bu görkəmli alim və yazıçı müasir semiotika, kütləvi kommunikasiya nəzəriyyəsi, ədəbiyyatşünaslıq, medievistika, estetika və fəlsəfədə postmodernist iqlimin yaradılmasına əhəmiyyətli dərəcədə təkan verən mütəfəkkirlərdəndir. Onun əsərlərindən son onilliklərin

Qərb humanitar elminin və ədəbiyyatının təkamülünün ümumi mənzərəsini izləmək mümkündür.

Umberto Ekonun elmi və bədii yaradıcılığını əhatə edən əsas əsərləri bunlardır: Fəlsəfə və semiotikaya dair elmi işləri: «İşarə», «Semiotika və dil fəlsəfəsi», «Kant və ördəkburun»; Estetika və kütləvi kommunikasiyaya dair işləri: «Açıq əsər», «Olmayan quruluş», «Səyahət və hiperreallıq»; Medievistikaya dair mətnləri: «Orta əsrlərdə incəsənət və gözəllik», «Orta əsrlər işarə nəzəriyyəsi haqqında»; Ədəbiyyat və ədəbiyyat nəzəriyyəsi üzrə əsərləri: «C.Coysun poetikası», «Oxucunun rolu», «Şərhin hədləri», «Şərh və hiperşərh», «Təhkiyə meşələrində altı gəzinti». Bundan əlavə, onun müxtəlif mövzulara dair bir çox esseləri, uşaqlar və tələbələr üçün populyar kitabları vardır. Eləcə də Ekoya dünya şöhrəti gətirən «Gülün adı», «Fukonun mayatniki», «Ada ərəfədə» adlı əsərləri olmuşdur.

«Gülün adı» romanı Ekonun semiotik və kulturoloji ideyalarının bədii mətn dili ilə ifadəsidir. Əsər yazıçı-alimin akademik tədqiqatları ilə mədəni təcrübəni bir araya gətirərək özünün ensiklopedizmi, kinayəsi, geniş elmi maraqları ehtiva etməsi ilə fərqlənir. Tarix, fəlsəfə, sənət, etika, təbiət elmləri kimi bir çox sahələrdə bilgi və erudisiya sərgiləyən bu zaman həm Şərq peşəkar ədəbiyyatçıları, yüksək intellektual sahibləri, həm də kütləvi oxucular üçün ən müxtəlif səviyyələrdə maraq kəsb edir. Bu da postmodernizmin görkəmli nümayəndələrindən biri olan bu yazıçının bədii-intellektual aləminin çoxcəhətliliyinin göstəricisidir. Bir çox postmodernist bədii nümunələrdə olduğu kimi mətnin formal quruluşu ilə deyil, məhz klassik romanlarda olduğu kimi süjet xəttinin maraqlılığı ilə oxucunu cəlb etmək, əyləndirmək bu əsərdə Ekonun yaradıcı vəzifələrindən biri olmuşdur.

Eko ənənəvi mədəni təcrübəni çağdaş bədii sintez məqsədilə mənimsəmişdir. Bu baxımdan «Gülün adı» romanında postmodernist poetikanın bir çox prinsip və elementlərindən məharətlə istifadə edilmiş, həm də bu istifadənin sərgilənməsi məqsədi daşıyaraq yeni postmodernist roman təcrübəsi yaradılmışdır. Bu təcrübədə müəllifin özünün də sonralar təhlil etdiyi kimi, intermətnlilik, müxtəlif semiotik heterogen elementlərin istifadəsi, rizoma, dil maskası vasitəsilə kənarlaşdırma, kinayə, metadil oyunları, ritmin təşkiledici rolu, əyləncəlilik və eyni zamanda yüksək intellektuallılıq, janr kodlarından həm kütləvi, həm elitar ədəbiyyat, həm də elmi-tədqiqat kimi istifadəsi,

mətnin şərh çoxluğu və s. kimi postmodernist prinsip və elementlər özünə yer tapır.

Ekonun romanın adı olaraq istifadə etdiyi «Gül» sözü dünya mədəniyyət tarixində bir çox mənalarda işlənilmişdir. Bu mənaların heç birinə konkret ünvanlanmadığına görə, oxucu həm yazıçının nəzərdə tutduğu və həm də nəzərdə tutmadığı bütün mənalara istiqamətlənir. «Gül»ün mədəniyyət tarixində həm sevgi, eləcə də idrak sevgisi, həm əzabkeşlik mənasında işlədildiyi, orta əsrlər xristian alleqoriyaları ənənəsi ilə bağlı olduğu, orta əsrlər şairləri tərəfindən söz obrazı kimi mənalandırıldığı məlumdur. Kitabın oxucusundan bu və ya digər mənanın çıxarılması və yaxud yeni bir mənanın yaradılması artıq oxucunun təşəbbüs və imtiyaz dairəsində olur. Müəllif mətnin qavranılmasındakı son nəticənin bütün məsuliyyətini öz üzərindən götürərək, obraz-mərkəzlilik funksiyasını oxucuya verir. Oxucu da öz növbəsində mətnin ifadə etdiyi universumun sahmana salınması strategiyasını seçir. Eko bunu çox gözəl şəkildə belə ifadə edir: «Müəllif kitabı bitirdikdən sonra mətnin qarşısını kəsməmək üçün ölməlidir». Yazıçı bu vəzifəni əsərə müəllif maskasını daxil etməklə, bir çox təhkiyə maskaları arxasında gizlənməklə yerinə yetirir.

«Gülün adı» romanının strukturu məharətli şəkildə həm orta əsrlər, həm də müasir mətnlərin mənimsənilməsilə qurulmuşdur.Müəllif postmodernist yaradıcılığın əsas xüsusiyyətlərindən biri olan intermətnlilik və sitat texnikasından ustalıqla istifadə etmişdir. Hətta Eko açıq şəkildə etiraf etmişdir ki, bu gün o özü də fərqləndirə bilməz ki, onun əsərlərində onun «özününkü» və «başqasınınkı» hansılardır. O belə hesab edir ki, müasir dövrdə yenidən istehsal və təkrar, bədii yaradıcılığın bütün növlərində dominantlıq təşkil edir.

Ekonun bu romanının janrını da klassik meyarlarla müəyyənləşdirmək çətindir.Öz qəhrəmanlarını orta əsrlər tarixi məkanına yerləşdirərək müəllif orta əsrləri, özünün qeyd etdiyi kimi, dünyanın ümumi durumuna çevirir.Ənənəvi tarixi romanlarda biz dünya tarixinin sivilizasiyaya doğru hərəkətini, inkişafın, tərəqqinin gedişatını izləyirik.Lakin Eko tarixin irəliyə doğru hərəkəti anlayışından imtina edir. Postmodernist səciyyəsinə uyğun olaraq dünyanın ümumi vəziyyəti kimi göstərilən orta əsrlər zamanları bölünmür. Eko tarixi və dedektiv romanlar arasındakı janr sərhədlərini aradan qaldırır. O, müəyyən ideologiya ilə müəyyənləşdirilən, müəyyən dünyagörüşünü təbliğ edən hər iki janrın ənənəvi vəzifəsini

dəyişdirir. Bir tarixi roman olaraq postmodernist yazıçının hər şeyi yandıran gülüş stixiyası qarşısında tarixin müqəddəs, humanist məqsəd və ideologiyaları parodiyalaşdırılır, bir detektiv roman olaraq da ənənəvi detektiv roman prinsiplərini rədd edir: xəfiyyə-qəhrəman qarşıya qoyulan məqsədlərə çata bilmir, məğlubiyyətə uğrayır.

Qərbi Avropa incəsənəti və ədəbiyyatı son onilliklərdə «hər şeyin mümkün olduğu insan» fenomenini geniş tədqiq edir. Umberto Ekonun «Gülün adı», «Fukonun kəfkiri», Miloş Kunderin «Varlığın dözülməz yüngüllüyü», Patrik Zyuskindin «Ətriyyatçı» və s. ədəbi əsərlərində, kinematoqrafiyada L.Bunyuelin «Arzuların bu bulanıq obyekti», «Gündüz gözəlçəsi», «Burjuaziyanın ciddi cazibəsi», Mikalencelo Antonioninin «Zabriski nöqtəsi», J.P.Qrinueyin «Rəssamın müqaviləsi», P.V.Fassbinderin «Berlin-Aleksanderplats», F.Kopolun «Apokalipsis bu gün» və s.

Ikinci fəslin beşinci yarımfəsli **"Türk postmodernizm nümayəndələri**"adlanır.Bu bölümdə dissertasiya işinin mövzusu çərçivəsində Nobel mükafatı laureatı, çağdaş türk postmodernist ədəbiyyatının görkəmli nümayəndəsi Orhan Pamukun təsəvvüfə post-modernist baxış çərçivəsində insan və sənət probleminin təhlili verilir, xüsusilə də yazıçının görkəmli Azərbaycan mütəfəkkiri Fəzlullah Nəimi və onun yaradıcısı olduğu Hürufilik təsəvvüf sistemini postmodernist texnika ilə müasir insanın dünyagörüşü ilə əlaqələndirən «Qara kitab» adlı romanı təhlil edilir.

Postmodernizmin bütün ümumi cəhətlərini özündə yaradıcı şəkildə əks etdirən Türkiyə postmodernizmi özünün spesifik xüsusiyyətlərinə malik olmaqla yeni ümumdünya cərəyanı kontekstinə üzvi şəkildə bağlanır. Türk postmodernist yazarları daim təkmilləşdirdikləri fərdi üslublarında, müəllif maneralarında, ədəbi texnikalarında çoxşəkilli və təkrarsız olduqlarına görə tədqiqatçılar onların yaradıcılıqlarının təsnif edilməsində kifayət qədər nisbiliyə yol verirlər. Bu həm də postmodernizmin yaradıcı perspektivini, postmodernist yazıçının guya şəxsi özünüdərkinin və fərdi üslubunun sitatlar, pastişlər və mətn şəklində dünya haqqında təsəvvürlərlə silindiyi və məhdudlaşdırıldığı kimi geniş yayılmış baxışların da son dərəcə yanlış olduğunun göstəricisidir. Adətən son dərəcə Qərb fenomeni kimi göstərilən postmodernizm bir çox tədqiqatçılar tərəfindən müasir türk ədəbiyyatı nümunəsində də totalitar və simulyativ qərbləşmə siyasətinə qarşı reaksiya kimi təqdim olunur.

Müəyyən tədqiqatçılar da türk postmodernizmini "Qərb postfəlsəfi fikri ideyasının milli bədii dərk prizmasından şərh edilən və dünya ümumsivilizasiya böhranı dövründə həyat şəraitinə orientasiya olunan yeni dünyagörüşün mənəvi əsaslarını formalaşdıran orijinal istiqamət keyfiyyətində" görürlər.

Türk postmodernizmi nümayəndələrinin təsnifi üsullarından biri kimi tədqiqatçılar postmodernizmin postfəlsəfənin mühüm prinsiplərindən biri olaraq əxz etdiyi həqiqətlər çoxluğu ideyasına münasibəti əsas götürürlər. Axıcı Həqiqət çoxluğunun və Mərkəzi Həqiqətin, Transendental işarəedilmənin yox olmasının təsdiqində ifadə olunan epistomoloji inamsızlıq postmodernizmdə sonsuz sayda "sayrışan" işarə simulyakrların oyununda ifadə olunur. Həmin əsərlərin qəhrəmanlarının plüralist əsaslarda yaradılması zamanı müxtəlif heterogen elementlər - mədəniyyətlərin dilləri, müxtəlif estetik sistemlərin elementləri, hər cür mümkün janr və üslubların kodları hibridləşdirilir.

Bu da müxtəlif hibrid-mutant janrların yaradılmasında ifadə olunan əsərlərin quruluşunu mərkəzsizləşməyə gətirib çıxarır. Qərb postmodernizmində Həqiqətlər çoxluğunun və Mərkəzi Həqiqətin yoxluğunun ifadələrindən biri olan "boşluq" anlayışı türk postmodernist yazarlarında ənənəvi neqativ mənasında - "ölüm" mənasında ifadə olunur. O.Pamukun "Qar", N.Erayın "Ölüm yuxusu" əsərlərində "boşluğa"- "ölümə" müraciət postmodernizmin ifadə vasitələrindən olan həqiqətlər çoxluğunun təcəssümü vasitəsi kimi meydana çıxır. Bu prinsipin bir ifadə vasitəsi kimi türk postmodernistləri diskursun və subyektin mərkəzləşdirilməsindən də geniş istifadə edirlər.

Orhan Pamukun "Qar" romanında Qars kimi bütöv bir şəhərin, M.Munqanın "Alisa möcüzələr şəhərində" povestində isə bütöv bir planetin necə saxta simulyakra çevrildiyinin şahidi oluruq.Həqiqət çoxluğunun bədii təcəssümünü vermək üçün türk modernistləri mühüm bir vasitə kimi dil ilə oyundan məharətlə istifadə edirlər. Bu onlara öz əsərlərində hiperreallığın - çoxlu cari həqiqətlərin ekvivalentlərini sərgiləməyə imkan verir. Dil oyunlarının ən geniş yayılmış formaları pastiş, "şizofrenik dil"dən istifadə və qeyri-normativ leksikadır.

Türk postmodernizminin əsas səciyyəvi xüsusiyyətləri insan haqqında yeni nəzəriyyələrdə də özünü biruzə verir. Dünyada, dünya və insan haqqındakı təsəvvürlərdə, insan təfəkküründə baş verən sürətli və

indiyə qədər görünməmiş, heç bir şeylə müqayisə olunmayacaq qədər böyük dəyişikliklər elmi və bədii təfəkkürün plüralizminə istiqamətlənən yeni tipli fəlsəfi görüşlər, dünya və insan haqqındakı baxışlarda yeni modellər yaradır. Mədəniyyətlərin, sivilizasiyaların bir-birini əvəz etməsi dövründə insanmərkəzli və elmmərkəzli ideyalara istiqamətlənmə əyani şəkildə azalır və darlaşır. Türk postmodernist yazarlar modernizm dövrünün humanizmini qəbul etməyərək fərdi yaradılışın mərkəzindən, dünyanın əşrəfi olmaq statusundan endirir, onun davranışlarını rasionalizmə xas olan yalnız şüurlu təmayüllərlə deyil, həm də XX əsr fəlsəfi-psixoloji təlimlərin öyrətdiyi kimi şüursuz impulslarla şərtiləndiyini göstərirər. Öz sələfləri olan sosial-realistlərdən və modernistlərdən fərqli olaraq postmodernistlər fərdi şüurdan daha çox kütləvi şüurla, şəxsi-hissi olandan daha çox, kollektiv şüursuz olanla, onun tarixi prosesdəki rolu ilə maraqlanırlar. Onlar daha çox "tarixi-ictimai istehsalın şüursuz libidinal investisiyasının mövcudluğunu göstərən" şizoanalizdən fəal istifadə edirlər. Onlar obyektiv gerçəkliklə, "daxili aləmlərin" gerçəkliyi ilə deyil, dünya-mətn, dünya-işarələr, simulyakrlarla iş görürlər. Bu da onlara hər hansı bir mərkəzləşdirici dünya ideya və dortrinalarından azad olmağa imkan verir. Türk postmodernistləri fransız şizoanalitiklərinin ardınca "insan və təbiətin, dünya və insanın eyniliyi"ni bəyan edərək, insan şəxsiyyəti və cəmiyyətini hər şeyin "yanıb-söndüyü" və öz əksliyinə keçdiyi vahid mətnli-rizomalı məkana çevirirlər.

İnsan haqqında yeni postmodernist nəzəriyyələr insanın yalnız tarixi təkamülün deyil, həm də onun "heyvani" mahiyyətinin gizləndiyi bioloji instinktlərində olduğunu insana aşılayan türk yazarlarının yaratdığı obrazlarda təcəssümünü tapır. Orhan Pamukun müasir Türkiyənin səciyyəvi fiquru olan intelligent insanı sosial fəallıqdan, sosial problemlərdən qaçır, cəmiyyətin, xalqın mənafeyi üçün deyil, daha çox öz mənafeyi üçün seçim etməyə çalışır, ona görə də əsərin sonunda ikiləşir, mərkəzləşir. N.Erayın və B.Qarasunun "yanıb-sönən" müəllif surətləri oxucu kütləsinin həyat müəllimi və yolgöstərəni olan ənənəvi müəlliflərə qətiyyən bənzəmir. O, qeyri-sabit şəkildə çoxdur, seriyalı-klişeləşmiş və uşaqcasına qrammafonlaşmışdır.

Türk postmodernistlərinin əsərləri onların insan haqqındakı təsəvvürlərini bütövlükdə dəqiqləşdirir, bu zaman hər bir müəllif ümumi problemin müəyyən aspektini işləyir. M.Munqan və O.Pamuk

kollektiv şüursuzluq fenomeninə daha çox fikir verirlər. Onlar, həmçinin P.Kur, P.Maqden və T.Yucelin üzərində üzərində durduqları insana təkrarolunmaz fərdiyyət olmağa imkan verməyən kütləvi şüur stereotipliliyini də tədqiq edirlər.

T.Yucelin "Yalan" romanı oxucunu subyektivləşmə probleminin mərkəzi problem olduğu müasir kulturoloji tədqiqatlar aləminə salır və insanın öz-özünü hiss etmək vəziyyətində olmadığı barəsindəki qeyri-klassik fəlsəfənin təsəvvürlərini əks etdirir. Onun qəhrəmanı subyektin tələb etdiyi və hər vəziyyətlə yenidən doğulduğu vəziyyətdən doğulan təsbit olunmamış eyniyyətsiz subyektə çevrilən daim sürüşkən eyniyyət axtarışında, "fərdiyyətlər seriyasından keçən ani eyniyyətdə, hansısa bir eyniyyətdən digər eyniyyətə keçid"də yerləşir. Bu insan-simulyakrda şüurluluq və şüursuzluq bir-birlərindən keçilməz divarlarla ayrılmışdır. Bu insan daha çox özünün qeyri-kamil təbiətinin, şüursuz instinktlərinin proyeksiyasıdır.

"Ağ qala" romanı postmodernist texnikanın zərif şəkildə istifadə olunduğu bir əsərdir. Yazıçı məharətlə oxucunu bütün roman boyu inandırır ki, bax elə indicə, növbəti səhifədə onun qəhrəmanları yerlərini dəyişəcəklər - türk italyan olacaq, italyan isə türk olacaq. Lakin bu baş vermir, roman boyu intizarda qalan oxucunun gözləmləri özünü doğrultmur. Fəlsəfi və tarixi baxımdan dərin məzmun kəsb edən, sənətkarlıq səviyyəsinə görə Kafka və Kalvinonun əsərləri ilə haqlı olaraq müqayisə edilan bu "Ağ qala" romanı Şərq və Qərb haqqında olduqca mühüm və incə düşüncələr ifadə edir.

Orhan Pamukun 1990-cı ildə qələmə aldığı "Qara kitab" romanında "Ağ qala" romanında istifadə etdiyi ideya və vasitələr inkişaf etdirilir.

İki səviyyəli quruluşa malik olan bu əsərin mətninin daxilində də bir ikilik mövcuddur. İkililik mövzusu romanın surətlərində də tamamilə reallaşdırılmışdır. "Səssiz ev" romanı bir ailə nümayəndələri arasındakı qarşılıqlı münasibətlər tarixçəsidir, müxtəlif ekstremist təşkilatların liderlərinin hakimiyyətə can atdığı bir zamanda ölkədəki son dərəcə qeyri-sabit ictimai-siyasi şərait fonunda əbədi "atalar və övladlar" konfliktinə yeni postmodernist baxışdır. Müəllifin öz ifadəsinə görə o, süjetin gedişatında və surətlərin açılışında Folkner yanaşmasından istifadə etmişdir. Hər bir fəsil romandakı beş qəhrəmandan birinin hekayəsidir, onun keçmiş haqqında xatirələri və ya gələcək haqqında düşüncələridir, bütövlükdə isə 1970-ci il sonları

Türkiyə tarixinin heyrətamiz retrospektivi, xoşbəxt keçmiş və həyəcanlı bəlirsiz gələcək haqqında tarixdir. Roman qəhrəmanları hər biri öz tarixçəsini nəql edərkən oxucunun gözləri önündə bir oğlan və bir qız nəvənin İstanbuldan yanına gəlmələri və bunun pis bir sonluqla nəticələnməsi canlanır. Orhan Pamuk bu romanında mistik elementlərdən istifadə etmir, rənglərin, cansızların, heyvanların dili ilə danışmır. Kitab daha çox realist səciyyə daşıyır, həyatın müxtəlif dolanbaclarında qalmış insanlar qarşılıqlı münasibətlərini əhatə edən heyrətamiz psixoloji cəngəlliklərdə azıb qalan, anlaşılmazlıq zirvəsindəki əbədi qarın soyuğunda donan insanların həyatları, onların problemləri...

"Yeni həyat" romanı, epiqrafında göstərildiyi kimi, postmodernist səciyyə daşıyır. Roman orta əsrlər və orta əsrlər sonrası Avropa ədəbiyyat ənənələrinə parodiya kimi nəzərdə tutulmuşdur. Əsərdə başqa bir mədəniyyətə məxsus olan şəxs tərəfindən müəyyən xristian, qismən də müsəlman rəmzlərini kinayəli şəkildə yenidən dərk edilməyə çalışılır. Lakin tədqiqatçıların fikrinə görə romanın mətnində Osmanlı müsəlman mədəniyyətinə aid olan momentlər xristian rəmzlərinə eyhamlardan daha inandırıcı və peşəkar şəkildə işlənmişdir. Müəllif maskasının tətbiqi, dublikat fəndlərindən istifadə, başqa əsərlər və öz əsərləri ilə geniş intermətn əlaqələri postmodernist yazının zahiri səciyyələrini özündə göstərir. Yeni üslubi xüsusiyyət kimi isə romanda adın qəhrəmanın davranışını müəyyənləşdirdiyi obrazların ad-maskalarından geniş şəkildə istifadəni misal göstərmək olar.

Ikinci fəslin altıncı yarımfəsli **"Müasir Azərbaycan ədəbiyyatında postmodernizm (Kamal Abdulla)"** adlanır. "Yarımçıq əlyazma" postmodernizmin əksər texnika və prinsiplərini özündə ifadə etdirən, postmodernist konstruksiyasının milli metafizik dünyagörüşümüzün əsaslarından olan klassik mətnlərə tətbiq edildiyi ilkin uğurlu romanlardan biridir.

Romanın yüksək bədii təfəkkür və yazı təcrübəsinə malik olan bir yazıçı tərəfindən yazılması ilə bərabər, həm də dərin intuisiyaya, geniş elmi-fəlsəfi biliklərə sahib olan, xüsusilə də son yarım əsrdən çox bir müddəti əhatə edən çağdaş, son ədəbi və fəlsəfi cərəyanları izləyən, onlara dərindən bələd olan bir mütəfəkkir alim tərəfindən qurulması, analitik düşüncə süzgəcindən keçirilib yaradıcı şəkildə sintezləşdirilməsi bütün mətn boyu hiss olunur. Əslində müasir ədəbiyyatın tələbi də budur.

Əlbəttə, bunu heç kim iddia edə bilməz ki, əvvəlki ədəbiyyat sadəcə maraqlı hadisələrin nəqli və s. olmuşdur. Bunu bütün mədəniyyət tarixi ərzində heç bir ədəbi istiqamət, məktəb və s. haqqında demək olmaz. Dünya ədəbiyyatının klassiklərinin əsərlərinin hamısı əslində müxtəlif dövrlərdə, tarixi şəraitlərdə elə məhz dünyanın hissi-bədii idrakı formaları, nümunələri olmuşdur. Ədəbiyyat bütün zamanlarda eyni vəzifəni icra etmiş və etməkdədir. XX əsrdə ədəbiyyat sahəsində radikal proseslərin getməsi əslində elmdə, cəmiyyətdə baş verən çox nəhəng və indiyə qədər misli görünməmiş proseslərin baş verməsi ilə əlaqədardır. Ədəbiyyat bədii inikas, bədii idrak vəzifəsini yerinə yetirmək üçün gerçəklikdə belə heç vaxt rast gəlinməmiş mürəkkəb prosesləri mənimsəyib ifadə etmək üçün forma və keyfiyyət dəyişikliyinə uğramalı idi. İlk dəfə olaraq bədii idrakla elmi idrak arasındakı sərhədlər belə kəskin şəkildə aradan qaldırıldı. Bədii idrak elmi idrakı öz genişliyində əritməyə başladı. Bütün bunlar bədii mətnin strukturu, təhkiyəsi, forması və s.-də baş verən yeni mürəkkəb proseslərdə özünü göstərməyə başladı. Modernizm dərin psixologizm və fərdiyyət fəlsəfələrinin inkişafı ilə özünün yeni inkarı və davamına - postmodernizmə gəlib çıxdı.

Postmodernizmlə modernizmin fərqli və bənzər cəhətləri barədə tədqiqat işində ətraflı bəhs edilmişdir. Əlbəttə, müxtəlif prinsip və taktiki elementlə bu iki istiqamət arasındakı fərqi görünən səviyyəyə gətirib çıxarır. Lakin burada üzərində durmaq istədiyimiz məsələ postmodernizmin modernizmin birtərəfli psixologizm və fərdiyyətçilik prinsiplərinə, mahiyyətcə ateist mahiyyətinə qarşı bəşər mədəniyyəti tarixi ərzində mövcud olan bütün ədəbi düşüncə, istiqamət və məktəblərin bərabər hüquqda ifadəsinə haqq qazandırması yaradıcı plüralizm xüsusiyyətidir. Kamal Abdulladan postmodernizm, yoxsa modernizm ədəbi cərəyanlarının hansına aid olduğu barədə soruşulduqda özünü heç bir ədəbi cərəyana daxil etmədiyini, bununçün çoxsaylı tədqiqatçı və tənqidçi ordusunun olduğunu bildirir, eyni zamanda qeyd edir ki, "amma postmodernizm və modernizm barədə maraqlı fikir mübadiləsi aparmaq olar.

Ücünncü fəsil **"Müasir elmin və Şərq fəlsəfəsinin qarşılıqlı əlaqəsi. Mistik və rasional elmi idrak paralelləri"** adlanır. "**Insan amilinə münasibət və müasir elmi idrak"** adlı birinci yarımfəsildə bəhs etdiyimiz müasir elmin mənzərəsinin Şərq fəlsəfəsilə paralellik təşkil etməsi böyük təəccübə səbəb olmuşdur. Bu fəsildə Nis Borun Çin və

qədim hind fəlsəlfəsində elmi problemlərin paralellik axtarışında atom nəzəriyyəsində elmin tamamilə başqa sahələrində, məsələn psixologiya və xüsusilə də fəlsəfi problemlərə müraciət etməsi Budda və Lao Tszı kimi mütəfəkkirlərin qarşılaşmasından bəhs olunur. F.Kapranın “Fizikanın Daosu” əsərində elmdə mütləq həqiqətin mövcudluğu haqqında ehtimaldan cixiş edir, Şərq mistikası təsəvvüf və müasir fizika kimi reallığı hissi qavrayişın nail olmadığı şəkildə təsvir edir. Təsəvvüfdə fizikada olduğu kimi, dil problemi təməl xarakter daşıyır. Yarımfəsildə Eynişteyn və Taqorun baxışlarındakı əsas fərqlər elmi həqiqətin insandan asılı olub olmamasının qəbul edilib edilməməsindən bəhs olunur.

**“Humanitar problemlərdə sinergetikanın rolu”** adlı ikinci yarımfəsildə sinergetikada, təfəkkürün klassik konsepsiyaları ilə müqayisədə,insanın müşahidəçi və qarşılıqlı iştirakçı kimi rolu birinci dərəcəlidir. Bu rol, ümumiləşdirilmiş mənada desək, təfəkkür subyektinin sonrakı konkretləşməsində onun tədqiq olunan dünyanın ayrılmaz hissəsi kimi baxılmasıdır. V. A. Arşınov və V. Q. Budanovun fikrinə görə, süinergetika klassik zəkanın universalist-transsendalist iddiaları və illüzyalarını paylaşmır, o, aşağıdakı qədim prinsipi yenidən açır: İnsan bütün şeylərin ölçüsüdür.

Əgər biliyin ölçüsü insan varlığıdırsa, onda bununla bizim reallıq haqqında təsəvvürlərimiz də dəyişir. Reallıq insan reallığı olur: dünya insan dünyasıdır. Təsdiq etmək olar ki, bizim kainatımız insan kainatıdır, insan dünyası öz mahiyyətinə görə antropdur.

Üçüncü yarımfəsil **“Fəlsəfi təsəvvürdə antrop prinsipi və ədəbiyyat intuitiv idrak vasitəsi kimi” a**dlanır. Keçmiş-indi-gələcək-bunlar yalnız eyni bir şeyin, mahiyyətinə görə dəyişməyən bir dünyanın müxtəlif adlarıdır. Gələcək yalnız insanın məhdud idraki imkanlarına görə, bu bilgisizliyin nəticəsi kimi mövcuddur. Dünya belə bir yanaşma nəticəsində hansısa nəhəng bir tavtalogiya kimi görülür. Oradakı idrak artıq mövcud olan idrakdır. Yaradıcılıq, yenilik hamısı yalnız insanın idrak qabiliyyətinin məhdudluğundan doğan illüziyalardır. Ağlın sonsuz imkanlarında gələcək və keçmiş bu günün tavtalogiyası olardı. Belə bir dünyada prinsipial baxımdan yeni heç bir şeyin yaranması mümkün deyil. Əgər dünyada qanunauyğun inkişaf yoxdursa, onda onun dəyişməsi hansısa yaradıcılıq kimi təsəvvür olunur. Obrazlı desək, təbiətin özü bilmir ki, gələcəkdə nə olacaq. Bu, A.Berqsonun təbiətin inkişafının özünün yaradıcı xarakter daşıdığı dünyasıdır. Belə bir dünyanın adekvat dərki A. Berqsona gərə, rasional elmin və dəqiq elmi metodların əsasında deyil,

irrasional, öz mahiyyətinə görə intuisiyanın əsasında mümkündür. Belə ki, o, hərəkət və dəyişikliyə mahiyyət etibarı ilə yaxındır. Elmin hər bir şeyi qanunlara müncər etmək arzusu təbiətin inkişafının yaradıcı mahiyyətinə uyğun gəlmir. Ona görə də onun varlığını adekvat əks etdirmir. Yaradıcı prosesin qeyri qanunauyğunluğu spontanlığı onun dərkini hər hansı bir qanun və formal məntiqi vasitələr əsasında qeyri-mümkün edir. Yaradıcılıq yalnız yaradıcılıq vasitəsi ilə dərk edilir. Hansı ki, elə insan intuisiyasının əsasında durur.

Üçüncü fəslin dördüncü yarımfəsli "**Multikulturalizm-mədəniyyət fəlsəfəsinin yeni mərhələsi kimi**" adlanır. Bu yarımfəsildə vahid mədəniyyət məkanında müxtəlifnövlü eynihüqüqlu qrupların birgə mövcudluğunu səciyyələndirən bir tədqiqat anlayışi kini humanitar elmləri tarixində, eləcə də, mədəniyyət fəlsəfəsində millətlər, xalqlar, və mədəniyyətlər arasındakı münasibətlərdə yaranmış situasiyalara reaksiya olaraq son onilliklərdə meydana çıxmasından, multikulturalizmin fəlsəfi əsaslarının formalaşması maarifçilik dövründə mədəniyyət fəlsəfəsinin yaranmasından söz açılmışdır.

Üçüncü fəslin beşinci yarımfəsli "**Multikulturalizm nəzəriyyəsində mədəni birliklər**" adlanır. Cəmiyyət həyatınının bütün sahələri ilə əlaqəli, eləcə də inkişaf etməkdə, dəyişməkdə olan təcrübi prosessual bir məsələ olduğuna görə onun elmi şəkildə müəyyənləşdirilməsi, təsnifləşdirilməsi və s. üçün yanaşmalar müxtəlifliyindən və Şərq nəzəri fəlsəfəsi bir məsələ olmadığından maarifçilik dövrünə və klassik metafizik fəlsəfənin bir sistem kimi yekunlaşdığı, beləliklə, tarix və mədəniyyət fəlsəfəsinin zəruri olaraq tələb olunduğu dövrün düşüncə məktəbləri təfəkkür sistemləri anlayışları cərcivəsində öyrənilməsindən danışılır.

Dördüncü fəsil **"Kamil insan problemi"** adlanır.**"Azərbaycan ədəbiyyatında təsəvvüf"** adlı birinci yarımfəsildə qədim dövrlərdən müasir çağlarımıza qədər bu problem sistemli şəkildə araşdırılır.

Minillik Azərbaycan ədəbiyyatını, xüsusilə də poeziyasını dərindən tədqiq etdikdə bu nəticəyə gəlmək olur ki, bu ədəbiyyatın ruhu, onun ideya fəlsəfi əsası təsəvvüfdür, bir olan Allah axtarışıdır, vəhdəti-vücuda qovuşma arzusunun, zərrənin küllə, fənanın bəqaya, damcının ümmana axışının ifadəsidir.

Azərbaycanda hələ şifahi xalq ədəbiyyatından başlayaraq təsəvvüf elementlərinə rast gəlinir. Təsadüfi deyildir ki, şifahi xalq

ədəbiyyatının ən böyük yaradıcıları saz-söz ustaları *aşıq* (yəni *aşiq* - haqq aşiqi) adlanır.

«Dədə Qorqud» dastanındakı Ozan Dədə Qorquddan tutmuş XIX əsrdə yaşayıb-yaratmış Aşıq Alıya, Aşıq Ələsgərə qədər bütün görkəmli xalq aşıqları həm də təsəvvüf biliciləri olmuşlar. Eləcə də, şifahi xalq ədəbiyyatının digər qəhrəmanları – lətifələri ibrət mənbəyi olan Molla Nəsrəddin, Bəhlul Danəndə kimi şəxslər də, əslində, təsəvvüf əhlidir.

Ədəbi və fəlsəfi fikir tariximizin görkəmli nümayəndələri - Nizami Gəncəvi, Şihabəddin Sührəvərdi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şəms Təbrizi və başqaları həm də ümumdünya təsəvvüf və fikir tarixində özünəməxsus yer tutan mütəfəkkirlərdir.

Sührəvərdi Nəsimi, Şəms Təbrizi kimi sufilərin yaradıcılığı, Azərbaycanda işraqilik və hürufiliyin İbn Ərəbi təlimi ilə əlaqələri, azərbaycanlı Şəms Təbrizinin Cəlaləddin Rumi üzərində onun sufi taleyini müəyyənləşdirən təsiri hələ özünün hərtərəfli tədqiqatını gözləyir.

Azərbaycan ədəbiyyatının ideya-psixoloji təmayülünün tədqiq edilməsi üçün ən parlaq məqamlardan biri də XVIII əsrin böyük şairləri Molla Pənah Vaqiflə Molla Vəli Vidadinin «Deyişmə»sidir. Azərbaycan ədəbiyyatının vicdanı deyə biləcəyimiz, fərdin mənəvi naqisliyini, ictimai qüsurları, o cümlədən də yalançı ruhaniliyi kəskin tənqid və ifşa edən böyük satirik şairimiz Sabir də təsəvvüf əxlaqına malik olmuşdur. Nə qədər dini formalizmdən uzaq olsa da, onun da əsas meyarı "Quran" əxlaqıdır.

XX əsrdə yaşayıb-yaratmış mütəfəkkir-şair Hüseyn Cavidin «Peyğəmbər», «Şeyx Sənan», «Xəyyam», «İblis» və s. əsərləri də islam və təsəvvüf haqqında onun düşüncələrini əks etdirir.

XX əsrin II yarısında yaşayıb-yaratmış olan görkəmli Azərbaycan alimi Aida İmanquliyeva əsrin içində doğulan və getdikcə böyüməyə başlayan problemləri görən və onlara qarşı «mədəniyyətlərin qarşılıqlı əlaqə və birliyini» önə çıxaran qlobal düşüncəli, zamanının sərhədlərini aşan zəka sahibidir. Bəşəriyyətin bütün zamanlar üçün doğurduğu nadir dühalardan olan İbn Ərəbi ilə bağlı aparılan tədqiqatlar Aida xanımın yubiley günlərində keçirilməsi bir qanunauyğunluğun ifadəsidir. Zamana, forma və miqyasına görə dəyişsə də, bəşəriyyətin problemləri və onların həlli yolları eynidir:

bölücülük, nifaq, ayrı-seçkilik, eqoizm və bunlara qarşı isə bir yol - Vəhdət.

Aida İmanquliyevanın yaradıcılıqlarını müqayisəli şəkildə tədqiq etdiyi ərəb məhcər ədəbiyyatı nümayəndələri, Amerika transsendentalistləri, ingilis romantikləri, eləcə də rus tənqidi realistlərinin yaratdıqları mənəvi-əxlaqi saflıq idealı olan kamil insan obrazını, əslində, sufilər min ildir ki, əməli olaraq öz həyatlarında yaşadırlar. Təsəvvüf mahiyyət etibarilə dünyanın bir çox mütəfəkkirlərinin idealı olmuşdur. Təsəvvüf Allahın vəhyinə, "Quran"a bağlı bir ezoterik bilgidir. Lakin, eyni zamanda, müxtəlif dinlərə qail olan, müxtəlif düşüncə sistemlərinə və əqidəyə malik olan zəka sahibləri bu ezoterik bilgidə, idrakın bu batini, dərin səviyyəsində birləşirlər.

Göründüyü kimi, təsəvvüf elementləri forma və məzmun etibarilə Azərbaycan şifahi və yazılı ədəbiyyatının əsas xüsusiyyətlərini təşkil etdiyi üçün bu ədəbiyyatı yaradan görkəmli nümayəndələrin sufi kimliyinin araşdırılması da mühüm elmi əhəmiyyət kəsb edir. Və əlbəttə ki, burada təsəvvüf bir islami dünyagörüşü olaraq çox geniş anlamda dərk edilir.

Dördüncü fəslin ikinci yarımfəsli **"Sufi ədəbiyyatında eşq mənbəyi"** adlanır. Burada bu iki dünyagörüşün, «insan və sənət» problemlərinə baxışlarını qarşılıqlı-müqayisəli şəkildə tədqiq və təhlil edərək, postmodernizmin özünün fəlsəfi-estetik görüşləri ilə təsəvvüfün içində var olduğunu və postmodernizmin də açıq bir dünyagörüşü olmaq etibarilə təsəvvüfün məhz bir elmi təlim kimi varlığını qəbul etdiyini göstərməklə, əslində insan düşüncəsinin eyni əsaslara və eyni hədəflərə malik olduğu nəticəsini ortaya qoymağa çalışmışıq. Təsəvvüf insanın öz mənəvi təkamülündə çata biləcəyi ən yüksək məqam olan «kamil insan»ın fəlsəfəsini və estetikasını yaratmış, insanın ilkin təkamül mərhələlərini isə keçilməsi zəruri olan üzərində durmağı lazım bilinməyən bir mərhələ hesab etmişdir. Tarix boşluqları sevmir. Postmodernizm min il sonra bu boşluğu doldurur, min illərin dəyər prinsiplərinə qarşı çıxaraq antiinsanın fəlsəfəsini və estetikasını yaradır. Dissertasiya işində dialektik metodu əsas götürülərək bu iki baxış bir-birinə zidd, lakin vəhdətdə olan biri digərini tamamlayan dünyagörüşləri kimi təhlil edilir. Həmçinin ideal haqqında, ideal insan obrazı haqqında antik fəlsəfənin yaradıcılarından tutmuş Kantın, Hegelin, Marksın, Nitsşenin, XX əsr müxtəlif fəlsəfi cərəyanlarının nümayəndələrinin baxışları mövzu çərçivəsində tarixi müqayisəli-əlaqəli

şəkildə tədqiq edilir, insan problemi, eləcə də «kamil insan» problemi ümumi antropoloji baxışlar prizmasından təhlil olunur.

Dördüncü fəslin üçüncü yarımfəsli **"Sədrəddin Konəvi və modern elmi düşüncə"** adlanır. Sufizm başlıca olaraq insanın daxili aləminin dərkinə istiqamətlənib. Allaha doğru uzanan bu yolda insan qəlbinin hərəkəti daxili səviyyədə gerçəkliklə toqquşmaya, mənəvi axtarışların gərginliyinə gətirib çıxarır. Sufinin şəxsi empirik təcrübəsi dində gizlənən sirlərin, ezoterik gerçəkliyin ifadəsinə yönəlib. Bu mənəvi gerçəklik formal teologiyanın leksik çərçivəsinə sığmayan, yuxugörmələrin, simvolların, miflərin dili ilə, xüsusi təsəvvüf terminləri, poetik obrazlarla ifadə olunur. İslam dinində xəttatlıq və mücərrəd təsviri sənət – miniatürlər istisna olmaqla verbal (sözlə ifadə olunan) olmayan dini simvolikalar forması qadağandır. Yalnız poeziya bir kommunikasiya vasitəsi, sənət növü kimi məqbul olmuşdur. Poeziya, adətən, öz ifadəliliyinə ümumi ansamblda malik olurdu. Poetik nümunələrin xüsusi qayda kimi musiqinin müşahidəsi ilə ifa edilirdi. Bu baxımdan muğamın təsəvvüf həyatında rolu, onun fəlsəfi-estetik əsasları, klassik poeziya ilə forma və məzmun bağlılığı dissertasiya işinin mövzusu çərçivəsində tətbiq olunur. Həmçinin müxtəlif sufii təriqətlərində musiqi və rəqsin bu ezoterik sistemlərlə əlaqəsi, məsələn, mövləvilikdə səma rəqsinin sufinin Allahla rabitə vasitəsi kimi idraki estetik məziyyəti təhlil olunur. Təsəvvüf bir mənəvi antropologiya olmaq etibarilə insan problemi bu təlimdə mərkəzi yerlərdən birini tutur. İslam mistisizmi olaraq təsəvvəfün özünün yaranışı və inkişafı, dinin əsas məsələsi olan Allah-insan münasibətlərinin dialektikası ilə bağlıdır. Din, eləcə də onun dərinləşmiş ezoterik bilgisi olan sufizm bütün humanist səciyyəsi ilə yanaşı, daim Allah mərkəzli təlim olmuşlar. İnsanın varlığı maddi və əyani olduğuna görə, dinin, eləcə də mistisizmin axtarış hədəfi, var olma qayəsi Allahın varlığını bilmək, buna əmin olmaq, sübut və təsdiq etməkdir. Yarandığı ilk zamanlarda sufizm Allahla insan arasındakı, yaradanla yaradılan arasında qarşılıqlı daxili əlaqənin sevgi bağlarının mövcud olması fikri ilə tarix səhnəsinə qədəm qoymuşdur. İlk sufilər olan Zu-n-Nun əl Misri, Rabiə əl-Ədəviyyə, əl-Mühasibi və əl-Həllacın eşq təlimi özünün sadəliyi və Allahla birbaşa, vasitəsiz rabitəsi ilə səciyyələnirdi. Həllacın «Ənəlhəq» görüşündə isə Allah-insan münasibətindəki qütblər aradan götürülür. Sufizmin sonrakı inkişafı boyu bu bir mürəkkəb sistemli ezoterik «yol»a çevrilir. Min ildən artıq bir dövrdə çoxsaylı istiqamətlər,

məktəblər, şəxsiyyətlər yetirən sufizm bütün metod, yanaşma, üsul, üslub fərqlərinə baxmayaraq, öz vahid dünyagrüşünü qoruyub saxlamış, inkişaf etdirmişdir. Dissertasiya işində mövzu ilə əlaqədar sufi dünyagörüşünün mühüm istiqamətlərindən olan, dünya fəlsəfi antropologiyasının inkişafına böyük töhfələr verən Şihabəddin Sührəverdinin «İşraqilik», Əbu Hamid əl-Qəzalinin teologiya ilə sufizmi birləşdirən etik baxışları, İbn Ərəbinin «Vəhdəti-vücud» fəlsəfəsi, Cəlaləddin Ruminin poetik-sufi dünyagörüşü və humanizmi «insan və sənət problemi» ətrafında və müasir postmodernist fəlsəfi-estetik dünyagörüşü ilə müqayisədə tədqiq və təhlil edilmişdir. Qeyd edildiyi kimi, XX əsrin ağır, mürəkkəb, kataklizmalı ictimai-iqtisadi, siyasi həyatı insanı həqiqətən amansız şəkildə yormuş və onun öz dəyərlərini yaşatmaq gücünü tükətmişdir. Postmodernizm də bütün fəlsəfi, estetik, ədəbi dünyagörüşləri kimi bir refleksiyadır və öz dövrünü onun insanını əks etdirir, əslində insanın mövcud situasiyasını, içinə düşdüyü mənəvi-psixoloji durumu göstərməklə çıxış yolu axtarır. Təsəvvüf postmodernizmin təqdim etdiyi insan obrazını inkar etmir. O, yuxarıda qeyd etdiyimiz insan eqosunun ilkin səviyyələrində postmodernizmin antiinsanını, antiqəhrəmanını min ildir ki qəbul edir. Lakin onu insanın mənəvi təkamül mərhələlərindən keçirərək, əxlaqi baxımdan saflaşdıraraq «kamil insan» mərhələsinə - Allahın Quranda verilən yüz ismindən biri olan «əl-Qəhhar» sifətinə malik olma dərəcəsinə gətirib çıxarır. Həm də ən əsası odur ki, sufizm öz iddialarında didaktik fəlsəfi təlim kimi çıxış etmir, canlı həyat tərzi, emprik təcrübəyə malik olan bir dünyagörüşü kimi çıxış edir. Yəni postmodernizmin antiinsan situasiyası nə qədər canlı, nə qədər «elmi»dirsə, sufizmin «kamil insan» situasiyası da bir o qədər canlı, bir o qədər həqiqidir. Sadəcə bu iki insan tipi postmodernizmin inkar etdiyi dəyərlər ierarxiyasının əks qütblərində durur. Bu isə fikrimizcə, məhz sufizmin özünün yaratdığı, «insan-Allah» münasibətinin başlanğıc mərhələsi modelidir.

**"Sufi və şeir. Mahmud Erol Kılıç"** adlanan dördüncü yarımfəsil aşağıdakı məzmundadır.

Mahmud Erol Kılıc təsəvvüflə bəşəriyyət tarixində var olan digər ezoterik məktəb və cərəyanların yaxınlığını bunların birinin digərindən təsirlənərək yaranmasında deyil, «şərqli və qərbli insanın günəşə baxmaq üçün başlarını yuxarı qaldırmaq kimi eyni hərəkəti etmələri» tərzində bir obrazlı ifadə ilə anladır. Eyni zamanda, günümüzün bir çox Qərb mütəfəkkirlərinin fikri ilə də sufizmin yaşarılığını itirməmiş yeganə hikmət

məktəbi olduğunu ifadə edir, həqiqi bilginin əldə edilməsi üçün məhz bu düşüncə sisteminin fikri təməllərinin və mənbəyinin pozulmamış olduğunu əsas gətirərək təsəvvüfü modern nihilist və pessimist dünyagörüşünə qarşı bir çıxış yolu kimi görür.

"**Nəticə**" hissəsində təsəvvüfdə və postmodernizmdə insan və sənət probleminin tədqiqindən əldə edilmiş aşağıdakı ən mühüm müddəa, qənaət və tövsiyələr göstərilmişdir:

1.Təsəvvüf insan konsepsiyasının dəyərləndirilməsinə yeni istiqamət vermiş və onun zənginləşməsinə xidmət etmişdir.

2.Ümumbəşəri, qlobal və universal məzmunlu məsələlərin həllində təsəvvüfün insan konsepsiyası açar roluna malik olmuşdur.

3.Müasir elmi idrakın Şərq-islam ədəbi düşüncəsinin tədqiqində üzləşdiyi, metodoloji yaxınlaşma və sintez yaratmasında ən başlıca çətinlik-bu təlimlərə daxil olmaq üçün elmi anlayış və kateqoriyalar sisteminin olmamasıdır. Mövcud olan anlayış və konsepsiyalar problemin tam mahiyyətini aça bilmir.

4.Sufi mütəfəkkirlər insan-sənət və dünyanın dərkində bütün məsələlərin mahiyyətinin dəqiqiliklə ifadəsi və mütləq kəşv edilə biləcəyinə dair rasional təfəkkürün iddialarına qarşı çıxmışlar.

5.Təsəvvüf irsinin postmodern ədəbi tarixi mərhələdə dirçəlişi, ona elmi idrakın və çağdaş ədəbi ictimaiyyətin müraciəti məhz belə bir qənaətlə bağlıdır ki, gerçəklik mütləq olaraq dərk edilə bilməz və bu məqamlarda yalnız simvolik-metaforik, yəni təsəvvüf mistisizminin ədəbi-bədii dili ilə ifadə edilə bilər. Müasir elmi təfəkkür bu simvolik dillə insan və dünyanın dərkində daha çox irəliləyərək daha düzgün nəticələr əldə edə bilər.

6.Təsəvvüf insan-sənət-dünya problemlərinin tədqiqində ortaq metodoloji təməl yaratmağa kömək edir və nəzəri-konseptuaı plyuralizmi-çeşidli baxışları bir araya gətirir, bu da öz növbəsində "insan idealı", onun miqyas və missiyasına dair təsəvvürlərin hüdudlarını olduqca genişləndirir.

7.Təsəvvüf irsi müasir dövrdə elmlərarası, dinlər və mədəniyyətlərarası dialoqun formalaşması üçün elmi və mənəvi-etik prinsiplərin birləşdiyi sinkretik metodoloji təməl ola bilər.

8.Təsəvvüfün ən dəyərli aspektlərindən biri odur ki, ortaq dialoq və elmi idrak dilinin yaranmasına imkan verir, insanin yalnız rasional deyil, həm də mənəvi-etik mahiyyətə malik olduğunu aşkarlamağa, humanist varlıq kimi missiyasına yeni ədəbi-estetik

çalarlar əlavə edir. "Kamil insan" idealının mahiyyət baxımından heç vaxt dəyişməyən, indiyə qədərki və bundan sonrakı bütün dövrlərdə ədəbiyyatın yaratmalı olduğu əbədiyaşar ideal olduğunu sübut edir.

9. Mahiyyətcə bütöv varlıq olan insanın bioloji, sosial, mənəvi-psixoloji strukturu, dünyagörüşü vəhdət təşkil etməlidir. Onun yüksək elmi, biliyi ilə yanaşı, mənəviyyatı, dəyərlər sistemi də bir-birini tamamlamalıdır. Çünki insanı insan edən ilk növbədə onun mənəviyyatıdır. Müasir dünyada dəyərlər sisteminin diqqət mərkəzinə gətirilməsi, onların sintezindən qlobal sivilizasiyanın gələcəyini təmin edən yeni humanizmin formalaşması bütün kəskinliyi ilə qarşıda durur.

10.Yeni dialoq və humanizm fəlsəfəsinin qlobal, ümumbəşəri dəyərlər sisteminin formalaşmasında təsəvvüf irsinin real və potensial imkanlara malik olduğu görünməkdədir. İnsan varlığının müxtəlif səviyyələrində yaşanılan, mahiyyətcə ədəbi dünyagörüşü və bədii zövq ilə bağlı olan, dolğun və zəngin həyat yaşamasını şərtləndirən "kamil insan" fenomeninin ədəbiyyatçünaslıqda bütöv konsepsiyasının formalaşdırılmasinin vacibliyi aktualdır.

**Dissertasiyanın məzmunu və əsas müddəaları müəllifin aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır**


1.**Avropa ədəbiyyatşünaslığı və Azərbaycan ədəbi-nəzəri fikri** (monoqrafiya). Bakı: "Elm", 2006, 274 səh.

**2. XIX Yüzyıl Batı Avrupa Edebiyatı** *(ekoller, teorik ve metodolojik tartışmalar).* İstanbul, İQ Kültür Sanat Yayıncılıq, 2008, 198 səh.

3. **Ədəbiyyatlaşan dünya** . Bakı, "Elm" RNPM, 2014, 380 səh.

4.**Avropa ədəbiyyatşünaslığında peşəkar ədəbi tənqidin ilk metodoloji istiqamətləri: müqayisəli-tarixi metod**. // *Azərbaycan MEA-nın Xəbərləri (Ədəbiyyat, dil, incəsənət seriyası),* Bakı: Elm, 2000, № 3-4, s. 85-95.

5. **Azərbaycan ədəbi fikrinin incisi**. // Professor Aida İmanquliyevanın rus dilindən tərcümə edilmiş "Yeni ərəb ədəbiyyatı korifeyləri" monoqrafiyasına ön söz. *Bakı: Elm, 2003,* s. 3-14.

6. **Qərbin və Şərqin mərkəzində yerləşən Azərbaycan modeli. //** "Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr" (Aida İmanquliyeva-65, Beynəlxalq elmi konfransın materialları. Bakı: Elm, 2004, s.9-23.

**7.Avropa ədəbiyyatşünaslığının ədəbi-mədəni genezisi**.// *Azərbaycan MEA-nın Xəbərləri, Humanitar elmlər seriyası,* Bakı: Elm, 2005, № 4, s.64-75.

**8.Avropa ədəbiyyatşünaslıq ənənələrinin müasir Azərbaycan ədəbiyyatşünaslığının təşəkkülünə təsiri və tədqiqinin əhəmiyyəti**. // *Bakı Dövlət Universitetinin Xəbərləri,* Bakı: BDU nəş., 2005, № 4, s.101-119.

9. **XIX əsr Avropa ədəbiyyatşünaslığının əsas istiqamətləri və Azərbaycan ədəbi-nəzəri fikri**. //Azərbaycan MEA-nın Xəbərləri. Humanitar elmlər seriyası,Bakı, 2006, № 1-4, s. 27-44.

**10.Bədii-bioqrafik metod Avropa ədəbiyyatşünaslığının əsas istiqaməti kimi.** // *"Azərbaycan və azərbaycanlılar" jurnalı.* Bakı: Nurlan, 2006, № 1-4, s. 45-52.

11.**Azərbaycan ədəbi düşüncəsinin-incisi**//Modern Arab edebiyyatının usta kalemleri, İstanbul 2007, s.9-19.

**12.A treasure of Azeri literary thought** // Foreword. Aida Imangulieva. Gibran, Reyhani and Nuayma (East-West interactions in early twentieth-century Arab literature). *Oxford: Inner Farne Press,2009,* p.ix-xv.

**13.The Crisis of Modern Rational Science and the Teachings of Ibn Arabi.** // İşrak (Ejeqodnik islamskoy filosofii) Moskva: Yazık slavyanskix kultur, № 1, 2010 (Rossiyskya Akademiya Nauk, İnstitut Filosofii, İranskiy İnstitut Filosofii), s. 479-486.

14.**Love is a Path to Salvation for Humanity**.//Azerbaijan And Azerbaijanis, N1-2 (vol.105-106). Baku:Nurlan, 2010**, p.32-37**

**15. Azərbaycan ədəbiyyatı və təsəvvüf**. // "Şərq və Qərb: ortaq mənəvi dəyərlər, elmi-mədəni əlaqələr" (Professor Aida İmanquliyevanın 70 illik yubileyinə həsr olunmuş Beynəlxalq İbnül-Ərəbi Simpoziumunun materialları), Bakı, "Elm", 2010, s. 156-164.

**16. Müasir elmin inkişaf xüsusiyyətləri**. // AMEA-nın Məruzələri, № 3, cild LXII, Bakı, "Elm", 2011, s. 140-144 .

**17.** Mahmud Erol Kılıç, Sufi ve şiir. //Tasavvuf, N 27,İstanbul.2011,s. 417-421.

18. **Love as a Path to Salvation**. // İshraq (Islamic philosophy yearbook), Moskva, "Vostochnaya Literatura" Publishers, № 2, 2011, pp. 606-612-719p

**19. Sufi və seir.//**Ədəbiyyat məcmuəsi, AMEA Nizami adınaƏdəbiyyat İnstitutu, Bakı, 2013.

**20.Understanding of the reality in relation to human factor the cognitive and scientific thinking, mystical and modern scientific knowledge.**Waliay yornal 3-(si): 320-324,2014. Available online at (www.Waliaj.com) issn 1026-3861.

21.**Tasavvufta kamil insan etkeni postmodernizm- dünyayi yeniden anlama ve düzenleme çabasi.** İstanbul, İQ Kültür Sanat Yayıncılıq, 2015, 198 seh.

**22."Postmodernism-Literalizing world"** Dr. Heather Walton Glasgow University, Uk Executive Editor Literature and Theology. February 2, 2015.

**23.Multikulturalizm mədəniyyət fəlsəfəsinin yeni mərhələsi kimi** // AMEA Xəbərləri, Humanitar elmlər seriyası, Bakı 2015, N 1.

**24. Multikulturalizm nəzəriyyəsində mədəni birliklər.**//Ədəbiyyat məcmuəsi, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Bakı, 2015, N 1.

A.Əsədovanın **"Ədəbiyyatlaşan dünya**" monoqrafiyası haqqında fil.ü.e.d. Vaqif Yusiflinin "Ədəbiyyatlaşan dünyamız" məqaləsi nəşr olunmuşdur: "525-ci qəzet", 25.01.2015.

**А. И. АСАДОВА**

# ПРОБЛЕМА ЧЕЛОВЕКА И ИСКУССТВА В СУФИЗМЕ И ПОСТМОДЕРНИЗМЕ

## РЕЗЮМЕ

В диссертации разрабатывается проблема, связанная с темой человека и искусства в ее преломлении в трудах исследователей, представляющих художественный, философско-эстетический мир, анализируются ее сущность, типология и виды, неоднородное представление образов, отождествляемых с понятием «идеальный человек», концепция «совершенного человека» в суфизме и ее сверхсложные оттенки.

Диссертация состоит из введения, четырех глав, заключения и списка литературы. Во «Введении» обосновывается актуальность темы, определяются степень ее разработки, объект и предмет, цели и задачи, методологическая основа, научная новизна, теоретическое и практическое значение работы, дается информация о ее апробации и структуре.

Первая глава диссертации, озаглавленная как «Суфизм и постмодернизм: два типа художественного мышления», охватывает девять разделов. Здесь предмет исследования составляют проблемы зарождения суфизма и постмодернизма, их художественно-эстетическая характеристика, тематические течения и соответствующие школы в восточно-мусульманском и западном мире.

Вторая глава — «Течение постмодернизма и ее представители в Новой истории» - посвящена разбору творчества американских и европейских писателей-постмодернистов.

Третья глава называется «Взаимодействие современной науки и Восточной философии. Параллели между суфизмой и рациональным научным мышлением». В этой главе анализируется роль синергетики в гуманитарных проблемах, антропический принцип в философской суфизме и вопросы, связанные с литературой в качестве интуитивного мышления.

В последней главе («Проблема совершенного человека») к исследованию привлечены следующие актуальные проблемы: суфизм в азербайджанской литературе, источник любви в суфийской литературе, а также Садраддин Коневи и современное научное мышление.

В заключении обобщаются основные положения работы.

A.I.Asadova

**The problem of human kind and art in**
**Sufizm and Postmodernism**

**Summary**

The thesis studies the statement of a problem of human kind and art in Sufizm and Postmodernism in the literary, philosophical and aesthetic ideas history and deals with the analyzis of the essence, typology and types, presentation of various images of "ideal man" in literature, the conception of "perfect personality" in Tasawwuf and its sophisticated aspects.

The thesis consists of an Introduction, four chapters, conclusion and the list of references. The Introduction substantiates the topicality of the subject, its development level, as well as the object and the subject of research, goals and objectives, the methodological basis, scientific innovation, theoretical and practical significance are determined and provides information about approbation and structure of the thesis.

The first chapter of the thesis "Sufizm and postmodernism: two literary thinking" consists of nine sub-chapters. The aforementioned chapter studies

the problems, such as, formation of Sufizm and postmodernism, their literary-aesthetic characteristics, the related streams of thought and schools in the Oriental-Islamic and Western thought.

The second chapter “The movement of postmodernism of new period and its representatives” is devoted to the analysis of the works by American and European postmodernist authors.

The third chapter is called “The mutual relation between the modern science and oriental philosophy. The mystical and rational scientific knowledge parallels”. In this chapter, the role of synergetics in humanitarian issues, the anthropic principle in the philosophical imagination and the literature are investigated as an intuitive cognition means.

The last chapter “The problem of the perfect personality” examines the actual problems, such as, Sufizm in Azerbaijani literature, source of love in Sufi literature, as well as, S.Konavi and modern scientific thinking.

The main provisions of the thesis are summarized in the Conclusion.

НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА
ИНСТИТУТ ЛИТЕРАТУРЫ им. НИЗАМИ

**На правах рукописи**

**АФАГ ИСА кызы АСАДОВА**

# ПРОБЛЕМА ЧЕЛОВЕКА И ИСКУССТВА В СУФИЗМЕ И ПОСТМОДЕРНИЗМЕ

**5715.01- Теория литературы, литературный анализ и критика**

**7211.01- Эстетика**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание научной степени доктора наук по филологии**

**БАКУ-2015**